QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 225 (5945) **5 dekabr** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# İlham Əliyev: Kadr islahatları davam etdiriləcək!

*Prezident İlham Əliyev Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edib*

“Dövlət məmurları vəzifəyə gəlir mənbəyi kimi baxmamalıdırlar. Dövlət məmurları xalqa xidmət etməlidirlər. Onların başlıca missiyası bundan ibarətdir və siz də belə işləməlisiniz”

Səh 2



6

Naxçıvanda Şeyxülislam Allahşükür Paşazadənin 70 illik yubileyi qeyd olunub



12

Konstitusiya Məhkəməsi Milli Məclisin buraxılmasının Konstitusiyaya uyğun olması barədə qərar qəbul edib



14

Tarixin zibilliyinə atılmışlara xatırlatma



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

5 dekabr 2019-cu il

# İlham Əliyev: Kadr islahatları davam etdiriləcək!

*Prezident İlham Əliyev Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edib*



## Rəsmi xronika

Prezident İlham Əliyev Əhməd Muxtarovun Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Əhməd Kərəm oğlu Muxtarov Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***

Prezident İlham Əliyev Rüstəm Xəlilovun Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Rüstəm Gülabba oğlu Xəlilov Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***

Prezident İlham Əliyev Vüqar Novruzovun Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Vüqar Vahid oğlu Novruzov Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında qanunu imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 21 may tarixli 2830 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

"Bizim apardığımız kadr və struktur islahatları, eyni zamanda, ölkəmizin beynəlxalq imicini daha da yüksəklərə qaldırır və vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. Keçirilmiş son rəy sorğusunun nəticələrinə görə, xalqımızın mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir və bəyənir"

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Prezident İlham Əliyev qeyd edib ki, ölkəmizdə köklü islahatlar aparılır. Bu islahatlar demək olar ki, bütün sahələri əhatə edir:***

-Bu gün mən sizi icra başçısı vəzifəsinə təyin edirəm. Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə, Vüqar Novruzovu Naftalan Şəhər İcra Hakimiyyəti başçısı vəzifəsinə təyin edirəm. Bu, böyük etimaddır. Siz bu etimadı öz işinizlə doğrultmalısınız.

Ölkəmizdə köklü islahatlar aparılır. Bu islahatlar demək olar ki, bütün sahələri əhatə edir. İqtisadi sahədə, maliyyə sektorundakı islahatlar, şəffaflıqla bağlı olan tədbirlər artıq öz gözəl nəticələrini verməkdədir. Mənə verilən məlumata görə, bu ilin 11 ayında təkcə vergi və gömrük orqanları büdcəyə plandan əlavə 934 milyon manat vəsait daxil etmişlər. Bunun da başlıca səbəbi kadr islahatıdır. Çünki həm vergi, həm gömrük orqanlarında köklü kadr dəyişiklikləri həyata keçirildi, yeni rəhbərlər təyin edildi. Beləliklə, nəticə də göz qabağındadır.

Ona görə struktur islahatları ilə bərabər, kadr islahatları da aparılır. Struktur islahatlarına gəldikdə, cəmiyyət bu islahatları yüksək qiymətləndirir. Prezident Administrasiyasının, Nazirlər Kabinetinin yeni strukturları təsdiq edildi, Milli Məclis yenidən formalaşacaq. Bütün bunların bir məqsədi var: ölkəmizin uğurlu inkişafını təmin etmək, ölkədə mövcud olan gözəl ab-havanı qoruyub saxlamaq, gənc peşəkar kadrlara imkan vermək ki, onlar özlərini göstərsinlər. Ümumi idarəetmə işlərində vəziyyət müasir standartlara cavab verməlidir.

Ölkəmizin uğurlu inkişafı danılmaz həqiqətdir. Bütün mötəbər beynəlxalq qurumlar bunu qeyd edir. Ölkəmizin çox gözəl beynəlxalq imici vardır. Təkcə oktyabr-noyabr aylarında ölkəmizdə baş vermiş hadisələr, keçirilmiş mötəbər tədbirlər onu göstərir ki, Azərbaycanın beynəlxalq nüfuzu nə qədər yüksəkdir və nə qədər beynəlxalq dəstək göstərilir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşü yüksək səviyyədə keçirildi və Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərinə götürmüşdür. Qoşulmama Hərəkatının Zirvə Görüşü yüksək səviyyədə keçirildi və 120 ölkənin dəstəyi ilə biz bu təşkilata sədr seçilmişik və üç il ərzində sədrlik edəcəyik. Dünya dini liderlərinin Zirvə Görüşü Azərbaycanda keçirilib və 70 ölkədən gəlmiş nümayəndələrin hər biri qeyd edirdi ki, Azərbaycan bu sahədə dünyada aparıcı rol oynayır.

Bizim apardığımız kadr və struktur islahatları, eyni zamanda, ölkəmizin beynəlxalq imicini daha da yüksəklərə qaldırır və vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. Keçirilmiş son rəy sorğusunun nəticələrinə görə, xalqımızın mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir və bəyənir.

Kadr islahatları davam etdiriləcək. Son vaxtlar aparılan islahatlar artıq öz nəticəsini verməkdədir. Cəmiyyətdə bu islahatlarla bağlı çox müsbət rəy formalaşıb və gözləntilər də vardır. Ona görə təyin edilmiş bütün yeni kadrlar qarşısında konkret vəzifələr qoyulur və bu kadrlar o vəzifələri icra etməlidirlər. Dövlət məmurları vəzifəyə gəlir mənbəyi kimi baxmamalıdırlar. Dövlət məmurları xalqa xidmət etməlidirlər. Onların başlıca missiyası bundan ibarətdir və siz də belə işləməlisiniz.

Rüstəm Xəlilov uzun illər Milli Məclisin deputatı kimi fəaliyyət göstərir. Əvvəlki dövrlərdə də böyük təcrübə toplamışdır. Əminəm ki, Hacıqabul rayonunda bu təcrübəni tətbiq edəcək və rayonun inkişafına töhfə verəcəkdir. Vüqar Novruzov gənc kadrdır və bir müddət Prezident Administrasiyasında işləyib, indi isə indi isə Xəzər rayonunda icra hakimiyyəti başçısının müavini işləyir. Yəni, bugünkü təyinat da mənim dediyim sözlərin təsdiqidir: təcrübə və gənclərin novatorluğu. Bax, bu sintez həm cəmiyyətdə mövcud olmalıdır, möhkəmlənməlidir, həm də iqtidar komandasında və bütün idarəetmə strukturlarında. Təcrübəli kadrların bilikləri, hazırlığı, eyni zamanda, gənclərin novatorluğu, dinamizmi, yeniliklərə meyilliliyi - bu prinsiplərin vəhdəti uğurlu inkişafımızı bundan sonra da şərtləndirəcəkdir.

Sizin əsas vəzifəniz ondan ibarət olmalıdır ki, rəhbərlik edəcəyiniz şəhər və rayonda iqtisadi inkişaf təmin edilsin, işsizliklə bağlı problemlər öz həllini tapsın. Siz vətəndaşlarla daim təmasda olmalısınız. Mövcud bütün olan problemləri, ilk növbədə, çox dərindən təhlil etməlisiniz və problemlərin həlli üçün iş planı tutulmalıdır. Təbii ki, problemlərin bir hissəsinin həlli mərkəzi icra orqanlarının səlahiyyətindədir. Belə olan halda, mərkəzi icra orqanları qarşısında məsələ qaldırmalısınız, eyni zamanda, Prezident Administrasiyasına məlumat verməlisiniz. O məsələlər ki, sizin fəaliyyətinizdən asılıdır, onları özünüz həll etməlisiniz və daim vətəndaşlardan onları narahat edən məsələləri eşitməlisiniz. Ona görə vətəndaşlarla sizin ünsiyyətiniz formal xarakter yox, işgüzar xarakter daşımalıdır və bu, sizin iş qrafikinizdə prioritet məsələ olmalıdır.

Ardı Səh. 3

# İlham Əliyev: Kadr islahatları davam etdiriləcək!

*Prezident İlham Əliyev Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edib*

Əvvəli Səh. 2

İşsizliklə bağlı problemlər bütövlükdə Azərbaycanda öz həllini tapır və beynəlxalq qurumlar da bu sahədəki uğurlarımızı qeyd edir. Ancaq mən bunu dəfələrlə demişəm, bəzi qonşu ölkələrdən fərqli olaraq bizim əhalimiz artır. Azərbaycan Cənubi Qafqazda yeganə ölkədir ki, əhali artır və sovet dövründən sonra - müstəqillik illərində təqribən 30 faizə yaxın artıbdır, 7 milyondan 10 milyona çatıbdır. Bütün bunlar, əlbəttə, tələb edir ki, yeni iş yerləri yaradılsın. İş yerlərinin yaradılması üçün investisiya layihələri icra edilməlidir. Ona görə icra başçıları da həm yerli, həm də xarici biznes dairələri ilə sıx təmaslar qurmalıdırlar, şəhər və rayonlara investisiyaları cəlb etməlidirlər ki, yerli istehsal artsın və işsizlik daim aşağı səviyyədə olsun.

Hacıqabul rayonunun potensialının inkişafı üçün mənim göstərişimlə Hacıqabul sənaye zonası yaradılır. Bu zonanın böyük potensialı olacaqdır və orada xüsusi güzəştlər rejimi tətbiq ediləcəkdir. Bilirəm ki, bu, sahibkarlar tərəfindən də yüksək qiymətləndirilir. Belə təcrübə artıq var, həm Sumqayıtda, həm Neftçalada, Masallıda, digər şəhər və rayonlarımızda. Mingəçevirdə sənaye zonaları yaradılıbdır və yaradılır. Ona görə sənaye zonasının fəaliyyətinə böyük diqqət verilməlidir. Digər layihələr, o cümlədən kənd təsərrüfatının inkişafı ilə bağlı olan layihələr icra edilməlidir. Kənd təsərrüfatında məhsuldarlığın artımı gündəlikdə duran əsas məsələlərdən biridir. Hesab edirəm ki, bu il biz rekord göstəriciyə nail olmuşuq. Taxılçılıqda orta məhsuldarlıq hər hektardan 32 sentner olubdur. Bu, son illər ərzində ən yüksək nəticədir və daha da artacaq. Pambıqçılıqda hələ ki, yığım başa çatmayıb, az qalıb, amma artıq hektardan 29 sentner pambıq götürmüşük. Pambıqçılar yaxşı bilirlər ki, Azərbaycan tarixində cəmi üç, ya dörd il məhsuldarlıq 30 sentnerə yaxın, yaxud da ondan çox olmuşdur. Onlardan biri də 2019-cu ildir. Ona görə kənd təsərrüfatı, xüsusilə indi, - əlbəttə, bu, Hacıqabul rayonuna aiddir, - inkişaf etməlidir.

Naftalan şəhərini müasir kurort mərkəzinə çevirmək cəhdlərimiz, hesab edirəm ki, çox uğurludur. Mən Prezident kimi ilk dəfə Naftalana gələndə ürəyim ağrıdı, çünki gördüm, demək olar ki, şəhər dağılmış vəziyyətdədir. İnfrastruktur yox, işıq yox, qaz yox, su yox, yollar bərbad. Sovet vaxtında tikilmiş sanatoriyalar dağılmış və şəhərdə minlərlə köçkün məskunlaşmışdı, onların da vəziyyəti çox ağır idi. Ona görə göstəriş verdim və tapşırdım ki, vəsait ayrılsın. İlk növbədə, biz köçkünləri köçürdük və onlar üçün gözəl evlər tikdirdik. Ondan sonra investorları cəlb etdik və onlar investisiya qoymağa başladılar. Bununla paralel olaraq, Naftalan şəhərindəki bütün hündürmərtəbəli binalar əsaslı şəkildə təmir olundu, yeni parklar salındı, mərkəzi şəhər xəstəxanası, beşulduzlu üç otel - "Çinar", "Qarabağ" və "Qaşaltı" açıldı. Bütün açılışlarda mən şəxsən iştirak etmişəm. Hazırda dördulduzlu və üçulduzlu otellərin tikintisi davam etdirilir. Sovet vaxtında Naftalana hər il müalicə üçün 70 min adam gəlmişdi. Biz indi bu hədəfə doğru gedirik. Artıq təqribən 30-40 min insan gəlir dincəlməyə və müalicə almağa. Naftalanı beynəlxalq turizm mərkəzi kimi inkişaf etdirmək bizim başlıca vəzifəmizdir. Şəhər icra hakimiyyəti bu işlərə böyük diqqət verməlidir. Naftalanda yaşayan vətəndaşların mütləq əksəriyyəti xidmət sektorunda fəaliyyət göstərir.

Bir sözlə, sizə göstərilən bu etimad doğrudan da sizin üçün böyük avansdır. Çünki indiki şəraitdə kadrlara qarşı tələbkarlıq artır. Kadrlar qarşısında çox ciddi vəzifələr qoyulur, xüsusilə pozuntularla bağlı, rüşvətxorluq, korrupsiya sıfır dərəcəsində olmalıdır. İnvestorları incitməməlisiniz, əksinə, onlara kömək göstərməlisiniz, onları cəlb etməlisiniz ki, vətəndaşlar sizin işinizdən razı qalsınlar. Əgər vətəndaşlar razı olsalar, - atalar sözü var, "Xalqın gözü tərəzidir", - mən də razı olacağam və sizin fəaliyyətinizə yüksək qiymət verəcəyəm. Yox əgər mənim etimadımı doğrultmasanız, onda sizi çox ciddi cəza gözləyir. Əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz və müasir dövrün tələblərinə cavab verərək rəhbərlik edəcəyiniz Naftalan şəhərinin, Hacıqabul rayonunun inkişafına öz töhfənizi verəcəksiniz.

> "Dövlət məmurları vəzifəyə gəlir mənbəyi kimi baxmamalıdırlar. Dövlət məmurları xalqa xidmət etməlidirlər. Onların başlıca missiyası bundan ibarətdir və siz də belə işləməlisiniz"

# "Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir"

*Prezident İlham Əliyev Türkiyənin Kənd Təsərrüfatı və Meşəçilik nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşəçilik naziri Bekir Pakdemirlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, Türkiyənin Kənd Təsərrüfatı və Meşəçilik naziri Bekir Pakdemirlinin ölkəmizə səfərinin kənd təsərrüfatı sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi işinə töhfə verdiyi və bu sahədə əlaqələrin genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığı qeyd olundu. Söhbət zamanı İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin Kənd Təsərrüfatı nazirlərinin Bakıda keçirilən iclasının əhəmiyyətinə toxunuldu, mötəbər beynəlxalq tədbirlərin Azərbaycanda yüksək səviyyədə təşkil olunması məmnunluqla qeyd edildi.



# Azərbaycan Prezidenti İlham Əliyev "Bakutel-2019" sərgisi ilə tanış olub




***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva dekabrın 4-də Bakı Ekspo Mərkəzində XXV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi - "Bakutel-2019" ilə tanış olublar.***

AZƏRTAC xəbər verir ki, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə və "Caspian Event Organisers" şirkətinin region üzrə direktoru Edvard Stroun dövlətimizin başçısına və birinci xamına 25 illik yubileyini qeyd edən builki sərgi haqqında məlumat verdilər.

Bildirildi ki, yubiley sərgisində 23 ölkədən 238 şirkət iştirak edir. Türkiyə, Rusiya, ABŞ, Belarus, BƏƏ, Fransa, İran, İsrail, İtaliya, Sloveniya, Xorvatiya və digər ölkələrin ticarət palataları və səfirliklərinin dəstəyi ilə aparıcı İT şirkətlərindən ibarət milli qruplar sərgidə təmsil olunur. Sərgiyə 11 ölkə milli pavilyonla qatılıb. Sərginin debütantlarının sayı ümumi iştirakçıların 30 faizini təşkil edir. Stendlərdə həm iş, həm də gündəlik həyat üçün "ağıllı" həllər təklif olunur. Hər il olduğu kimi, bu il də tədbirdə bir-birindən maraqlı layihələr təqdim edən stendlər qurulub. Sərgi Xəzər bölgəsində innovasiya və yüksək texnologiyalar sahəsində ən böyük hadisə olmaqla yanaşı, işgüzar əlaqələrin qurulması üçün də nadir məkandır.

Dövlətimizin başçısı və birinci xanım İnnovasiyalar Agentliyinin stendi ilə tanış oldular. Burada agentliyin fəaliyyəti haqqında məlumat verildi. Qeyd olundu ki, Agentlik regional investorları cəlb etmək üçün beynəlxalq ekspertlərin iştirakı ilə Fondlar Fondunun yaradılması üzərində iş aparır. Bu sahədə beynəlxalq təcrübə öyrənilir. Agentliyin indiyədək bir çox startapları həyata keçirilib. Bu startaplar sosial, süni intellekt, istehlakçılar, tibb və digər sahələri əhatə edir.

Dövlətimizin başçısına Azərbaycanda startapçılar üçün yaradılan şərait barədə məlumat verildi. Bildirildi ki, İnnovasiyalar Agentliyi bütün regional startaplara Azərbaycanda öz şirkət nümayəndəliklərini qeydiyyatdan keçirməyə, yerli mütəxəssislərdən ibarət komanda formalaşdırmağa, məhsullarını adaptasiya etməyə və kommersiyalaşdırmağa kömək göstərir.

Bu stenddə Azərbaycan Prezidentinə və birinci xanıma startap layihələri barədə məlumat verildi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "AzInTelecom"un stendində də təqdim olunan yeniliklərlə tanış oldular. Burada "Hökumət buludu" layihəsi, yeni məhsullar və layihələr təqdim edilir. Bundan başqa, eyni zamanda, proqram təminatı xidmətləri çərçivəsində yeniliklər nümayiş olunur. Stenddə, həmçinin Yevlaxda ehtiyat Data Mərkəzi, bulud texnologiyaları üzrə ən son xidmətlərin "Azcloud MeetUp" adlı emalatxanası barədə də məlumat almaq olar.

"Aztelekom" MMC-nin stendində məlumatın yüksək sürətlə ötürülməsini təmin edən müasir və səmərəli ayrılmış xətt xidməti, GPON və LTE texnologiyaları üzərindən göstərilən genişzolaqlı xidmətlər, İPTV və internetdə olan məzmunun filtrasiya xidməti təqdim olunur.

"Baktelecom" stendində sərgi ziyarətçilərinə Bakı şəhərini əhatə edən "Evədək optika" layihəsi və paytaxtətrafı ərazilərdə tətbiq edilən "Simsiz rabitə" şəbəkəsinin növbəti mərhələsi, həmçinin IPTV texnologiyası ilə rəqəmsal televiziya xidmətləri, mobil və stasionar telefonları ümumi şəbəkəyə birləşdirməyə imkan yaradan "Virtual ATS" xidməti təqdim olunur.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin əsas informasiya texnologiyaları infrastrukturu olan Məlumat Hesablama Mərkəzi ölkədə elektron imza üçün Milli Sertifikat Xidmətləri Mərkəzinin fəaliyyətini qanunvericiliyə əsasən təmin edən müəssisədir. Qırx beş ildən çoxdur ki, fəaliyyət göstərən Məlumat Hesablama Mərkəzi Azərbaycanda kompüter texnologiyası ilə hesablamalar və təhlillər aparan ilk qurumdur. Müəssisənin xidmətlərinə "özəl şəbəkələrin qurulması", "proqram təminatı", "məlumatın saxlanma və emalı sistemi", "sistem inteqrasiya həlləri", "veb saytların yaradılması" və digər mühüm xidmətlər daxildir. Mərkəz fəaliyyət sahələrini genişləndirərək informasiya texnologiyalarının bir çox istiqamətlərini əhatə edir.

"Azərpoçt" MMC-nin stendində yeni "Postman" xidməti təqdim olunub. "Android" sistemi ilə çalışan mobil tətbiq poçtalyonların işini asanlaşdırmaq və onların fəaliyyətinə nəzarət etmək məqsədi daşıyır. Buradakı digər yenilik isə "Postpay" - elektron pul kisəsidir. "Azərmarka" MMC-nin stendində markalı kitablar, bu il ərzində tədavülə buraxılan poçt markaları, suvenirlər təqdim edilir. Dövlətimizin başçısı və birinci xanım poçt markalarını möhürlədilər.

***

Prezident İlham Əliyev sərgidə Rusiyanın "Rossiya 24" televiziya kanalına müsahibə verdi.

***




Sərgidə İnnovasiyalar Agentliyi və "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin yardımı ilə şəhid ailələrin övladları üçün təmənnasız təşkil edilən STEM üzrə kursların iştirakçıları əldə etdikləri nailiyyətləri sərgi ziyarətçiləri ilə bölüşürlər. Kurs iştirakçıları hazırladıqları modelləri Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya nümayiş etdirdilər. Belarus da "Bakutel-2019" sərgisinin iştirakçıları arasındadır. Bu ölkədən "Bakutel"də 6 şirkət iştirak edir. Onlar İKT-nin ən son yeniliklərini Bakı sərgisində nümayiş etdirirlər. Prezident İlham Əliyev burada Belarus və Azərbaycanın birgə buraxılışı olan markanı möhürlədi.

"Startup Avenue" stendində İnnovasiyalar Agentliyində fəaliyyət göstərən 26 startap layihəsi nümayiş olunur. İnnovasiyalar Agentliyinin "Hybrid Startups" proqramı çərçivəsində Rusiya, İtaliya, Yaponiya, Ukrayna və İrandan olan xarici rezidentlər də sərginin iştirakçıları arasındadırlar.

Rusiya Federasiyasının Elm və Ali Təhsil Nazirliyinin sərgidəki stendində bu ölkənin 14 universiteti və bir elmi-tədqiqat institutunun ümumilikdə 35 layihəsi təqdim olunur. Bundan başqa, Rusiyanın 2 şirkət də öz məhsullarını nümayiş etdirir. "Bakutel-2019 "sərgisində Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində Elektron Hökumətin İnkişafı Mərkəzi öz stendi ilə təmsil olunur. Burada Mərkəzin idarə etdiyi, o cümlədən texniki cəhətdən ərsəyə gətirdiyi layihələr, qurumun əməkdaşları tərəfindən dövlət xidmətlərinin təkmilləşdirilməsini təmin edən İKT sahəsində həllər nümayiş olunur. Stenddə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya "myGov" portalı, "ASAN ödəniş", "ASAN Viza", "ASAN Finans" sistemləri və süni intellekt sahəsində mərkəzin gördüyü işlər barədə ətraflı məlumat verildi. İT sahəsində dünya liderlərindən olan CİSCO şirkəti də sərginin iştirakçıları arasındadır. Bu şirkət ən son yenilik və məhsullarını, həmçinin İT həllərini sərgi iştirakçılarına təqdim edir.

Vətəndaşlara qeydiyyat prinsipi olmadan xidmət göstərən DOST Mərkəzinin sosial sahədə innovativ yenilikləri də "Bakutel-2019"da təqdim edilir. Dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, bu ilin mayında açılışı olan DOST Mərkəzi ötən müddətdə 55 min vətəndaşa xidmət göstərib. Vətəndaş məmnunluğu səviyyəsi 95 faizdən çoxdur. Hazırda vətəndaşlara 132 xidmət göstərilir. Getdikcə təkmilləşdirilən bu xidmətlərin sayı artır. DOST Mərkəzinin müasir "Çağrı mərkəzi" 200 mindən çox zəng qəbul edib. Növbəti il isə Bakı ilə yanaşı, bölgələrdə də beş mərkəzin açılması nəzərdə tutulur. "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti də sərgidə təmsil olunur. Qafqazda ilk və yeganə peyk operatoru olan "Azərkosmos" telekommunikasiya və coğrafi kəşfiyyat sahələri üçün yüksək keyfiyyətli peyk xidmətləri təqdim edir. Prezident İlham Əliyevə şoranlaşma ilə bağlı peyk vasitəsilə aparılan müşahidələr barədə məlumat verildi. 1987-ci ildə təsis edilən "Huawei" şirkəti sərgidə yeniliklərini təqdim edir. Beynəlxalq aləmdə aparıcı informasiya və kommunikasiya texnologiyaları infrastrukturu və ağıllı cihazların təminatçısı olan şirkət dünyada üç milyarddan çox insana xidmət göstərərək, 170-dən artıq ölkədə və bölgədə təmsil olunur.




Rusiyanın Peyk Kommunikasiya Şirkəti də sərgidə məhsullarını təqdim edir. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sərginin "ROBOPARK" sahəsində təqdim olunan yeniliklərlə tanış oldular. Məlumat verildi ki, burada 20-dən çox interaktiv və əyləncəli proqramlaşdırma, həmçinin dronlar üzrə biliklər təqdim olunur.

Eyni zamanda, sərgidə müxtəlif robotlar da nümayiş etdirilir. Dövlətimizin başçısı və birinci xanım robotların danışığını dinlədilər və Azərbaycan musiqisi altında rəqsinə tamaşa etdilər. Digər bir robotun pianoda ifası da maraqla qarşılandı. Sonra xatirə şəkilləri çəkdirildi.

Daha sonra dövlətimizin başçısına "Bakı Taxi" MMC-nin yeni elektrik mühərriki ilə işləyən avtomobil modeli barədə məlumat verildi. Bildirildi ki, elektrik enerjisi ilə işləyən yeni taksilər ekoloji cəhətdən zərərsizdir. Avtomobillərdə USB portlar, wifi və GPS quraşdırılıb.

# Azərbaycan dövləti milli musiqi mədəniyyətimizə böyük qayğı göstərir

*Birinci vitse-prezident Mehriban Əliyeva Xalq artisti Əlibaba Məmmədovun evində qonaq olub*



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva dekabrın 4-də milli musiqi mədəniyyətimizin görkəmli nümayəndəsi, Xalq artisti Əlibaba Məmmədovun evində qonaq olub.**

Xalq mahnılarının, muğam ifaçılığının təşəkkülündə özünəməxsus dəst-xətti, xidmətləri olan ustad xanəndələrimizdən biri də Xalq artisti Əlibaba Məmmədovdur. AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva xalqımızın sevimli ifaçısının evinə qonaq gəldi. Mehriban Əliyevanın gəlişi Əlibaba müəllim üçün gözəl və gözlənilməz bir ziyarət oldu.

Birinci vitse-prezident Mehriban Əliyeva dedi: Salam, hörmətli Əlibaba müəllim. Çox şadam sizi görməyə.

Xalq artisti Əlibaba Məmmədov: Nə xoşbəxtçilik. Çox böyük zəhmət vermisiniz özünüzə. İnanırsınız ki, Allaha and olsun, mən nə boyda həyəcan keçirirəm ki, mənim üçün böyük bir şəxsiyyət, böyük bir insan bizə qonaq gəlib.

Birinci vitse-prezident Mehriban Əliyeva: Sağ olun. Sizi görməyə çox şadam.

Xalq artisti Əlibaba Məmmədov: Mən Sizi təbrik etmək istəyirəm, Birinci vitse-prezident seçilməyinizə görə bu, bir. İkincisi, "Heydər Əliyev" ordeni ilə təltif olunduğunuza görə, - bunların hamısına baxmışam, - bu, iki. Üçüncüsü, Rusiyanın Prezidenti Sizə böyük bir mükafat verdi, bütün dünya buna baxırdı. Sizi inandırım ki, mən bunlara hər dəfə baxdıqca həyəcanlanırdım.

Birinci vitse-prezident Mehriban Əliyeva: Çox sağ olun, Əlibaba müəllim, çox sağ olun.

Xalq artisti Əlibaba Məmmədov: Təbrik edirəm. Siz çox böyük işlər görmüsünüz, hələ də görürsünüz və hələ də görəcəksiniz. Bilirsiniz, amma bu üç iş elə bir işlərdir ki, nə bilim, tarixdən də o yanadır, bunu tarix yaza bilməz, bu, mümkün deyil. Allah Sizi var eləsin.

Birinci vitse-prezident Mehriban Əliyeva: Çox sağ olun Əlibaba müəllim.

Xalq artisti Əlibaba Məmmədov: Siz bizim xalqımızın sevimlisisiniz. Bu adı qazanmaq böyük bir şərəfdir. Vallah düz deyirəm. Siz xalqımızın sevimlisisiniz.

Birinci vitse-prezident Mehriban Əliyeva: Mənim üçün belə sözləri sizin kimi insandan eşitmək böyük şərəfdir. İnanın mənə, belə duyğuları hiss etmək çox xoşdur, Əlibaba müəllim.

Xalq artisti Əlibaba Məmmədov: Sağ olun. Baxıram, bir dəqiqə buraxmıram, harada olursunuz görürəm, həmişə, necə deyərlər, ürəyimdəsiniz.

Birinci vitse-prezident Mehriban Əliyeva: Çox sağ olun, Əlibaba müəllim. Mən də sizə demək istəyirəm ki, çox yaxşı xatırlayıram ilk dəfə sizinlə tanış olmağımızı. O zaman Heydər Əliyev Fondunun böyük bir layihəsinə start verdik. Yəqin ki, yadınızdadır, bizim milli sərvətimiz olan muğamın qorunmasına yönəlmiş bir layihə idi, siz böyük yardım göstərdiniz və bu illər ərzində sizin dəstəyinizlə, iştirakınızla birlikdə böyük işlər gördük. Siz Azərbaycanın görkəmli xanəndələrindən birisiniz. Sizin özünüzə məxsus dəst-xəttiniz var, çox gözəl səsə malik olan ustadsınız və bütün Azərbaycan xalqının sevimlisisiniz. Sizi hamı sevir. Onu da qeyd etmək istəyirəm ki, siz Azərbaycanın milli-mənəvi ənənələrinin daşıyıcısısınız. Ona görə də böyük hörmətə malik olan bir insansınız. Mən sizinlə ünsiyyətdə olanda özüm üçün hər dəfə nəsə yeni bir şey aşkar etmişəm, öyrənmişəm. Siz böyük müəllimsiniz, siz 50 ildən çoxdur ki, musiqi kollecində dərs deyirsiniz və yeni gənc xanəndələr nəslinin yetişməsində sizin misilsiz xidmətləriniz olub. Ona görə Əlibaba müəllim, bir daha çox sağ olun, sizi görməyə çox şadam və ən əsası, sizə möhkəm cansağlığı arzulamaq istəyirəm.

Xalq artisti Əlibaba Məmmədov: Çox sağ olun, var olun. Vallah bilmirəm nə deyim, mən çox söz bilirəm, mən hər şeyi bilirəm, amma Sizi görmüşəm yadımdan çıxıb. Mən də Sizi təbrik edirəm. Məsələ burasındadır ki, Putinin dediyi o sözləri sözü bütün dünya eşitdi. Hamımız fəxr etdik. Bilirsiniz də, bu, hörmət qayğı idi, çox gözəl hadisə idi. Siz mənə bir ağsaqqal, sənətkar kimi həmişə hörmət etmisiniz, qayğı göstərmisiniz. Mən Sizin qayğınızı heç vaxt unutmamışam, heç vaxt da unutmayacağam, heç mümkün də deyil.



Birinci vitse-prezident Mehriban Əliyeva: Çox sağ olun.

Xalq artisti Əlibaba Məmmədov: Amma bir şeyi də qeyd edim ki, Siz məni təzədən tarixə salmısınız. Nəyə görə, mənim 100 dənə mahnım var, mən onları 50 ildə yaratmışam, hər ildə 2 dənəsini.

Birinci vitse-prezident Mehriban Əliyeva: Özü də çox gözəl mahnılardır.

Xalq artisti Əlibaba Məmmədov: Bu mahnılar əlli ildir camaatın dilində oxunur. Mən sizdən xahiş etdim ki, onlar itməsin, batmasın, o mənfur qonşularımız götürüb deyirdilər ki, bizimdir. Siz də o saat çox böyük həvəslə gözəl bir layihə yaratdınız.

Birinci vitse-prezident Mehriban Əliyeva: Elədir. Bu, bizim mədəni irsimizdir, Əliababa müəllim. Sizin yaradıcılıq irsiniz Azərbaycan xalqının mədəni irsidir. Əlbəttə, biz bunu saxlamalıyıq, qorumalıyıq.

Xalq artisti Əlibaba Məmmədov: Doğrudan da Siz təkcə mənə yox, xalqa böyük xidmət etdiniz. Xalqımızın musiqisi zənginləşdi, yüz dənə mahnı var, hamısı xalq mahnısıdır. Özü də orada yad nəfəslər heç vaxt olmayıb, yenə də olmayacaq. O yaxşılığı mən necə unudum, kim unuda bilər? Xalqımız da unutmayacaq. Bilirsiniz, Siz çox işlər görmüsünüz, danışmaqla qurtarmır. Amma mən bu sözü deyirəm ki, Siz xalqın sevimlisisiniz, bu, böyük şərəfdir. Xalq sevsə sənətkarı, ona dağ bata bilməz.



Birinci vitse-prezident Mehriban Əliyeva: Çox sağ olun. Mənim üçün böyük şərəfdir belə sözləri sizdən eşitmək. İnanın mənə, doğrudan böyük şərəfdir. Çox sağ olun.

Xalq artisti Əlibaba Məmmədov: Mən olanı deyirəm, vallah Siz çox xeyirxah adamsınız. Çox xeyirxah işlər görürsünüz, zəmanəmizin Hacı Zeynalabdinisiniz.

Birinci vitse-prezident Mehriban Əliyeva: Sağ olun, Əlibaba müəllim. Mən Prezidentin də böyük salamlarını sizə çatdırıram.

Xalq artisti Əlibaba Məmmədov: Prezidentimizi də bağrıma basıram.

Birinci vitse-prezident Mehriban Əliyeva: O, sizi çox sevir, dedi ki, mənim böyük salamlarımı Əlibaba müəllimə çatdır. Sizə möhkəm cansağlığı arzuladı.

Xalq artisti Əlibaba Məmmədov: Sağ olsun, var olsun. Öz aramızdı, baxın, 15 ildə nə qədər işlər görmüsünüz, kim edə bilər? Prezidentimiz 15 ildir bizə rəhbərlik edir, xalqımızı idarə edir. Baxın, görün, Azərbaycan o Azərbaycandır, Bakı o Bakıdır?

Birinci vitse-prezident Mehriban Əliyeva: Bəli, ölkəmizdə böyük işlər görülüb.

Xalq artisti Əlibaba Məmmədov: Böyük işlər görüb, yenə də görür, indi lap böyük işlər görür. Bunun hamısını yerinə qoyub. Bilirsiniz, mən siyasətçi deyiləm, mən muğam ifaçısıyam, azdan-çoxdan şeriyyat bilirəm, bir də muğamat bilirəm. Başqa bir şeylə işim yoxdur. Amma gözüm görür də, vallah. Bəzən deyirəm ki, bunların ağlı yoxdur, gözləri də yoxdur? Baxmırlar, görmürlər ki, nə işlər görülür? Xalqımızın adından, musiqiçilərin adından, öz adımdan deyirəm ki, var olun, dünyada nə gözəl şeylər var hamısı Sizə qismət olsun.

Birinci vitse-prezident Mehriban Əliyeva: Çox sağ olun. Mən sizin dəstəyinizi hər zaman hiss etmişəm.

Sonda Birinci vitse-prezident Mehriban Əliyeva milli musiqi mədəniyyətimizin görkəmli nümayəndəsi, Xalq artisti, muğam, təsnif və xalq mahnılarının mahir ifaçısı Əlibaba Məmmədova cansağlığı və gələcək fəaliyyətində uğurlar arzuladı.

# Naxçıvanda Şeyxülislam Allahşükür Paşazadənin 70 illik yubileyi qeyd olunub

***Dekabrın 4-də Naxçıvanda Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin isə 40 illik yubileyi qeyd olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbir müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başlanıb.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 9 aprel tarixli Sərəncamına əsasən Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin isə 40 illik yubileyinin ölkəmizdə geniş qeyd olunduğunu bildirib, yubileylər münasibətilə Allahşükür Paşazadə Həzrətlərini təbrik edib, ona uzun ömür və möhkəm cansağlığı arzulayıb.





Ali Məclisin Sədri deyib: Tarixə nəzər salsaq, aydın görmək mümkündür ki, din o yerdə mənəvi dəyər kimi formalaşır ki, orada dövlət başçıları dini dəyərlərə qayğı ilə yanaşır, din xadimlərinin fəaliyyətinə hərtərəfli şərait yaradırlar. Ötən əsrin 70-80-ci illəri və 1993-cü ildən sonrakı dövr Azərbaycan tarixində belə bir mərhələ təşkil etmişdir. Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə dinə münasibətdə fərqli yanaşma ortaya qoymuş, dini-mənəvi dəyərlərimizin qorunub yaşadılması qayğısına qalmışdır. Bu gün ölkə Prezidenti tərəfindən davam etdirilən bu siyasət, Azərbaycanda formalaşmış dövlətdin münasibətləri, tolerantlıq və dini həmrəylik dünyada nümunə kimi qəbul edilir. Görkəmli din xadimi Şeyxülislam Allahşükür Paşazadə də fəaliyyətində Ümummilli Liderin ideyalarına sonsuz sədaqəti ilə seçilmiş, İslam dininin düzgün təbliği, cəmiyyətdə dini-mənəvi həmrəyliyin möhkəmləndirilməsi və dövlət-din münasibətlərinin inkişafında mühüm xidmətlər göstərmişdir. Ulu öndərimiz Heydər Əliyev deyirdi ki, "Müqəddəs dinimiz olan İslamın gözəl ənənələrinin ölkəmizdə, eləcə də bütün Qafqaz bölgəsində qorunub saxlanılması və möhkəmləndirilməsində Şeyxülislam Allahşükür Paşazadənin xüsusi xidmətləri vardır. Onun Qafqaz Müsəlmanları İdarəsinə rəhbərlik etdiyi illər ərzində bu dini qurum İslam dəyərlərinin geniş təbliğ olunması, müsəlmanların dini-mənəvi birliyinin möhkəmləndirilməsi, onların cəmiyyətin həyatında fəallığının artırılması işində böyük rol oynayan mühüm mərkəzlərdən birinə çevrilmişdir".

Ali Məclisin Sədri deyib: Şeyxülislam Allahşükür Paşazadə hələ orta məktəb illərində yerli ruhanilərdən dini təhsil almış, Buxarada "Mir-Ərəb" mədrəsəsinə daxil olmuş, buranı bitirdikdən sonra isə Daşkənd İslam Universitetində ali dini təhsilini davam etdirmişdir. Təhsilini başa vurub Azərbaycana qayıtdıqdan sonra Allahşükür Paşazadə Qafqaz Müsəlmanları İdarəsinin məsul katibi, Təzəpir məscidinin axundu və Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini, Naxçıvan Muxtar Respublikasının qazısı vəzifələrində çalışmışdır. 1980-ci ildə Qafqaz Müsəlmanları İdarəsinin sədri seçilən Allahşükür Paşazadənin şeyxülislamlıq fəaliyyətinin ilk illəri Sovet imperiyasının çətin dövrlərinə təsadüf etmişdir. Lakin müxtəlif siyasi hadisələrin real şahidi və iştirakçısı olmasına baxmayaraq Şeyx Həzrətləri vətəndaşlıq mövqeyini və azərbaycançılıq ideyalarına sədaqətini hər zaman ləyaqətlə nümayiş etdirmişdir. Fərqli quruluşlarda fəaliyyət göstərsə də o, sülhməramlı tədbirlərin bilavasitə təşkilatçısı və təbliğatçısı kimi böyük şöhrət və nüfuz qazanmışdır. Sovetlər Birliyi dövründəki dörd müsəlman ruhani idarəsindən yalnız Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi Şeyxülislam Allahşükür Paşazadənin şəxsi nüfuzu sayəsində öz mahiyyətini qoruyub saxlamış, bu gün Qafqaz Müsəlmanları İdarəsi kimi regionun ən güclü dini mərkəzinə çevrilmişdir.

Qeyd olunub ki, istər keçmiş Sovetlər Birliyi dövründə, istərsə də müstəqillik illərində Allahşükür Paşazadə xalqımız üçün taleyüklü məsələlərdə təkcə din xadimi kimi deyil, həm də ictimai fəaliyyəti ilə əsl vətəndaşlıq mövqeyi nümayiş etdirmişdir. 1989-cu ildə ilk müsəlman din xadimi olaraq SSRİ Ali Sovetinə xalq deputatı, həmçinin 1990-1995-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinə Naxçıvan seçki dairəsindən deputat seçilən Şeyxülislam Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin, bütövlükdə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində səmərəli və məhsuldar fəaliyyəti ilə seçilir. 20 Yanvar hadisələri zamanı dini rəhbər kimi imperiya qüvvələrinə qarşı mübarizədə göstərdiyi böyük fədakarlıq və tutduğu ədalətli mövqe, sonrakı dövrdə xalqımıza qarşı törədilmiş soyqırımları ilə bağlı dünya ölkələrinin dövlət başçılarına, parlamentlərinə və nüfuzlu beynəlxalq təşkilatlara müraciətləri bunu bir daha təsdiq edir. Ulu Öndər Şeyx Həzrətlərinin müstəqil Azərbaycan naminə gördüyü işləri belə dəyərləndirirdi: "Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsində Allahşükür Paşazadənin tutduğu əsl vətəndaş mövqeyi onun ölkədə cərəyan edən mürəkkəb ictimai-siyasi prosesləri obyektiv qiymətləndirmək, yaranmış problemlərin həllində dini amilin gücündən düzgün istifadə etmək bacarığını nümayiş etdirdi".

Ali Məclisin Sədri deyib: Qafqazda millətlərarası, dinlərarası və məzhəblərarası ayrı-seçkiliyin aradan qaldırılması, İslam həmrəyliyinin və tolerantlığın təmin olunması sahəsində Şeyx Həzrətlərinin mühüm xidmətləri vardır. Qafqaz Xalqları Ali Dini Şurasının Sədri kimi onun regiondakı münaqişələrin sülh yolu ilə həlli və sabitliyin əldə olunması, dinlər və məzhəblər arasındakı dostluq və dözümlülük münasibətlərinin möhkəmləndirilməsi naminə gördüyü işlər böyük dəyərə malikdir. Bir çox beynəlxalq dini qurum və mərkəzlərin rəhbərliyində təmsil olunan Şeyxülislamın mötəbər beynəlxalq konfranslarda dinlərarası dialoq və əməkdaşlıqla bağlı irəli sürdüyü təşəbbüslər daim yüksək dəyərləndirilir. Allahşükür Paşazadə görkəmli din alimidir. Elmlə dinin vəhdətini yaradan, dini təhsilin vacibliyini önə sürən Şeyxülislam tarix və ilahiyyat elmləri üzrə çoxsaylı monoqrafiyaların, elmi əsərlərin və məqalələrin müəllifidir. O, Qafqaz Müsəlmanları İdarəsinin nəzdində Elmi-Dini Şura yaratmış və ölkənin görkəmli elm və din xadimlərini bu ali qurumun işinə cəlb etmiş, Azərbaycan Respublikasının Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Ekspertlər Şurasına üzv seçilmişdir. Dini maarifçiliyi daim ön planda saxlayan Şeyxülislam Allahşükür Paşazadənin əsərləri tədqiqatçılar üçün həm islamşünaslıq, İslam mədəniyyəti və təfriqəçilik, həm də Qurani-Kərimin təfsiri və tərcüməsi tarixinə dair qiymətli mənbələrdir.

Ali Məclisin Sədri deyib: Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə və beynəlxalq aləmdə böyük nüfuza malik olan şəxsiyyətdir. Onun Azərbaycan dövləti və xalqı qarşısındakı xidmətləri yüksək qiymətləndirilmiş, ölkəmizin nüfuzlu mükafatları olan "Şərəf", "İstiqlal", "Şöhrət" və "Heydər Əliyev" ordenləri ilə təltif olunmuşdur. Lakin şəxsiyyəti ilə fəaliyyəti bir-birini tamamlayan, mənəvi borc anlayışını daim uca tutan Şeyx Həzrətləri çıxışlarının birində həyatda qazandığı bütün uğurların səbəbini belə izah etmişdir: "Heydər Əliyev həzrətləri bizi tolerantlığa, qardaşlığa, dinlər arasında dialoqa və bir-birinə hörmətə çağırırdı və bunu bizə öyrətdi. Bu siyasət bu gün də davam edir".

Şeyxülislam Allahşükür Paşazadənin ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən Heydər Əliyev yoluna sonsuz sədaqəti, dövlət-din münasibətlərinin möhkəmləndirilməsi və Azərbaycan həqiqətlərinin müdafiəsi sahəsindəki çoxşaxəli fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir. Dövlət başçısının müvafiq Sərəncamında da deyildiyi kimi: "Şeyxülislam Allahşükür Paşazadə bütün həyatı boyu cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin və milli həmrəyliyin bərqərar olunması yolunda səmərəli fəaliyyət göstərmiş, yaxın tarixi keçmişdə xalqımızın yaşamış olduğu taleyüklü hadisələr zamanı həm dini rəhbər, həm də ictimai xadim kimi yüksək vətənpərvərlik və əsl vətəndaş mövqeyi nümayiş etdirmişdir".

Ali Məclisin Sədri Şeyxülislam Allahşükür Paşazadəyə nəcib və şərəfli fəaliyyətində böyük uğurlar arzulayıb, əlamətdar yubileyləri münasibəti ilə bir daha təbrik edib.

Ali Məclisin Sədri "Naxçıvan Muxtar Respublikasının 90 illiyi" yubiley xatirə qızıl medalını Şeyxülislam Allahşükür Paşazadəyə təqdim edib.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək deyib ki, Şeyxülislam Allahşükür Paşazadə dini-ictimai xadim kimi beynəlxalq aləmdə böyük nüfuz sahibidir. O, elmi mühitdə diqqəti cəlb edən elm adamıdır. Şeyx Həzrətləri 1992-ci ildə doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri doktoru elmi dərəcəsi alıb. 1999-cu ildən Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin professorudur. O, İslam tarixi, ilahiyyat elmləri və İslam mədəniyyəti tarixi sahəsində Azərbaycanın ilk milli tarixçi-islamşünas alimidir. Şeyxülislam tarix və ilahiyyat elmləri üzrə "Qafqazda İslam", "İslamda ümmət və şüubilik", "Quranın təfsiri və tərcüməsi tarixi", "Qurani-Kərimin ilahi hökmləri və öyrənilməsi", "İslamda şəhidlik", "Milli münasibətlər və din", "Qurani-Kərimin ecazkarlığı", "Qurani-Kərimdə insan təbiəti" adlı monoqrafiyaların, elmi əsərlərin və çoxsaylı məqalələrin müəllifidir. Şeyxülislamın təşəbbüsü və rəhbərliyi ilə respublikamızda onlarla beynəlxalq elmi konfranslar keçirilib. İsmayıl Hacıyev muxtar respublikanın ziyalıları və elm adamları adından Şeyxülislamı yubiley münasibətilə təbrik edib.

Naxçıvan Muxtar Respublika Qazısı Yanında Şuranın Sədri Sahib Məmmədov çıxış edərək deyib ki, Şeyxülislam Allahşükür Paşazadə İslamın inkişafı, çoxəsrlik milli və mənəvi sərvətlərin qorunması, sülhün və əmin-amanlığın, müstəqilliyin və ədalətin təntənəsi naminə Allaha xoş gələn və xalqımızın, dövlətçiliyimizin xeyrinə olan bir çox savab əməllərin təşəbbüskarçısıdır. Parlaq və işıqlı həyat sürən, xalqı və dövləti üçün hər an çalışan Allahşükür Paşazadə ömür yolu ilə hər bir din adamı üçün örnəkdir. Bu gün İslamın qədim mərkəzlərindən və İslam dininin olduğu kimi qorunub yaşadıldığı müqəddəs diyar Naxçıvanda Şeyx Həzrətlərinin 70 illik yubileyinin keçirilməsi mühüm əhəmiyyət daşıyır.

**Ardı Səh. 7**

# Naxçıvanda Şeyxülislam Allahşükür Paşazadənin 70 illik yubileyi qeyd olunub

Əvvəli Səh. 6

Sahib Məmmədov Şeyx Həzrətlərinin yubileyinin muxtar respublikada qeyd olunmasını mənəvi dəyərlərimizə göstərilən qayğının daha bir ifadəsi kimi dəyərləndirib, muxtar respublika dindarları adından Şeyxülislam Allahşükür Paşazadəni təbrik edib.

Azərbaycan Yeparxiyasının Arxiyepiskopu Aleksandr İşein Şeyxülislam Allahşükür Paşazadəni yubiley münasibətilə təbrik edib. Qeyd olunub ki, Allahşükür Paşazadə nəinki Azərbaycan xalqı, eyni zamanda Qafqazda yaşayan digər xalqlar və rus xalqı tərəfindən böyük dini lider kimi qəbul olunur. Bu gün Azərbaycanda dini dəyərlərə xüsusi önəm verilir, məscidlər tikilir. Bütün dinlərə mənsub insanlar sülh və dostluq münasibətləri şəraitində azad və rahat yaşayırlar. Azərbaycandakı tolerantlığın, multikulturalizmin dünyaya tanıdılmasında Şeyxülislamın əvəzsiz xidmətləri vardır. Eyni zamanda o, beynəlxalq tədbirlərdə iştirak etdiyi zaman Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri birmənalı şəkildə ifadə edir və məsələnin sülh yolu ilə həllinin vacibliyini önə sürür.

Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Milix Yevdayev çıxışına şeirlə başlayıb:

Nələr keçməyibdir məğrur başından,
Üstünə tufan da, boran da gəldi.
Lakin əyilməyib daim yüksəlib,
Talış dağlarının vüqarı kimi.
Qürur əzəmətlə o ocaq qalır,
Azəri yurdunun baharı kimi.

Milix Yevdayev daha sonra deyib: Şeyx Həzrətlərinin fəaliyyətindən çox danışılıb, çox deyilib. Ulu öndər Heydər Əliyev deyirdi ki, “Bir xalq öz gələcəyi ilə o zaman fəxr edə bilər ki, o, gələcəyə dünənin çiyinlərində gedir”. Şeyx Həzrətləri də xalqının dünənini qoruyan, dəyərlərini yaşadan şəxsiyyətdir. Bu gün Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri arasında birlik vardır. Biz Yəhudilər Azərbaycan xalqı ilə uzun əsrlərdən bəri bir yerdəyik. Azərbaycan xalqı ilə birgə olub, onun şad gününə sevinirik. Bu işdə Şeyx Həzrətlərinin xidməti, əməyi böyükdür. Ölkəmizdə dini tolerantlıq var. Bütün dinlərin nümayəndələri üçün hərtərəfli şərait yaradılıb. Doğma Azərbaycanımıza Allah qələbə günü qismət eləsin. Uca bayrağımız Qarabağda dalğalansın.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib: Şeyx Həzrətlərinin tərcümeyi-halında Naxçıvan dövrü xüsusi yer tutur. O Naxçıvanın qazısı olub və bu torpaqdan SSRİ xalq deputatı və millət vəkili seçilib. Bugünkü tədbiri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Şeyx Həzrətlərinə verdiyi dəyər kimi qiymətləndirmək lazımdır. O, Azərbaycanın keçid dövründə göstərdiyi xidmətlərlə öz adını tarixə yazdıran şəxsiyyətlərdəndir. Azərbaycan müstəqillik əldə etməmişdən öncə Şeyx Həzrətlərinin böyük nüfuzu sayəsində İslam Əməkdaşlıq Təşkilatının üzv seçilib. Onun siyasi, ictimai, həm də elmi fəaliyyəti nümunə gücündədir. Şeyxülislam Azərbaycan xalqının yetirdiyi siyasi və ictimai xadim kimi bütün sahələrdə özünü təsdiq edib. Məhz Şeyxülislamın yubileyinin qeyd edilməsi də onun xidmətlərinə verilən yüksək qiymətdir.

Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov çıxış edərək deyib ki, Şeyxülislam həmişə xalqın ağır günlərində onun yanında olub, vətəndaş həmrəyliyinin möhkəmləndirilməsində mühüm xidmətlər göstərib. O, nəinki Azərbaycanda, bütün Qafqazda dini həmrəyliyə nail olub. Allahşükür Paşazadə xalqın etibarını, inamını qazanmış dini liderdir. Bu gün Azərbaycan ölkə Prezidenti İlham Əliyevin Ulu Öndərin yolunu uğurla davam etdirməsi nəticəsində dünyada böyük nüfuza malikdir. Şeyx Həzrətləri bu sahədə hər zaman ölkə Prezidentinin yanındadır və ölkəmizdə multikultural və tolerant



mühitin yaradılmasında mühüm xidmətləri vardır.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək deyib: Şeyxülislam Allahşükür Paşazadənin fəaliyyəti bir çox cəhətdən əhəmiyyətlidir. Dünya dini liderlərinin II Sammiti Şeyxülislamın beynəlxalq səviyyədə dini lider kimi qəbul olunduğunu bir daha təsdiq etdi. Çünki dünyada baş verən bir çox hadisələrin, müqayisəli məsələlərin həllində Şeyxülislam vasitəçilik edib, barış missiyasını həyata keçirib, sülhsevərlik istiqamətində fəaliyyət göstərib. Şeyxülislamın bu mərhələyə çatması Azərbaycanın dövlət müstəqilliyinin dini dəyərlərə, dini şəxsiyyətlərə verdiyi qiymətin, yaratdığı imkanın, açdığı böyük meydanın parlaq təzahürüdür. Allahşükür Paşazadənin xidmətlərindən biri də, dini dəyərlərlə milli dəyərləri uzlaşdırmağı bacarmasıdır. Bu gün Şeyxülislam Azərbaycan ziyalıları ilə çox yaxşı münasibətdədir. Onun Azərbaycan Milli Elmlər Akademiyası ilə əməkdaşlığı dini dəyərlərin, din faktorunun elmi ideyalar əsasında inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir. Bu gün dini-mənəvi dəyərlərin qorunub yaşadıldığı Naxçıvan Muxtar Respublikasında Şeyxülislam Allahşükür Paşazadənin yubileyinin qeyd olunması da onun şəxsinə verilən böyük qiymətin ifadəsidir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə 70 illik yubileyinin Naxçıvanda qeyd olunmasına görə Ali Məclisin Sədrinə minnətdarlıq edərək deyib: “Bu gün ölkəmizdə dini dəyərlər yaşadılır. Ulu Öndərin yolunu davam etdirən ölkə Prezidenti dövlət-din münasibətlərinin möhkəmləndirilməsinə xüsusi diqqət yetirir. Ölkəmizdə 70 illik yubileyimin qeyd olunması, bu gün isə qədim Naxçıvanda yubiley tədbirimin keçirilməsi fəaliyyətimə verilən yüksək dəyər və qiymətdir. Naxçıvanın mənim qəlbimdə xüsusi yeri vardır. Həyatda nəyə nail olmuşamsa, nə qazanmışamsa, onların hamısında Naxçıvanın payı var. Vaxtilə məni mərkəzdən uzaqlaşdırmaq üçün Naxçıvana qazı göndərdilər. Lakin burada qazı kimi fəaliyyət göstərdiyim illər həyatımın ən dəyərli mərhələsini təşkil etdi və məni formalaşdırdı. Əgər mən Azərbaycan Respublikasının Milli Məclisinə Naxçıvan seçki dairəsindən deputat seçilməsəydim, ölkəmiz üçün ağır günlərdə sözümü deyə bilməzdim. Bu şəraiti mənə naxçıvanlılar yaradıb. Ulu öndər Heydər Əliyev isə mənə həqiqəti görməyi, doğru yola getməyi, azərbaycançılığı, Vətəni və dini sevməyi öyrətdi. Allah mənə nə qədər ömür veribsə, bundan sonra da xalqıma, Vətənimə xidmət edəcəyəm”.

Sonra “Humanizmə çağırış” filminə baxış olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Şeyxülislam Allahşükür Paşazadə tədbir iştirakçıları ilə xa-



tirə şəkli çəkdiriblər.

Ordubadda “Allahşükür məscidi” istifadəyə verilib

Dekabrın 4-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin yubiley tədbiri çərçivəsində Ordubad rayonunun Dırnıs kəndində “Allahşükür məscidi” istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə açılış tədbirində iştirak ediblər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək deyib: Yeni məscidin istifadəyə verilməsi Naxçıvanda dini dəyərlərə göstərilən qayğının nümunəsidir. Bu yol ulu öndər Heydər Əliyev yoludur. Bu yol Azərbaycanı daha işıqlı sabahlara aparır. İlk dəfə adım bir məsciddə əbədiləşir. Bu mənim üçün böyük qürur və iftixardır. Bütün bunlara görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığımı bildirirəm. Allah doğma Azərbaycanımızı, Naxçıvanımızı qorusun”.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Allahşükür məscidinin istifadəyə verilməsi münasibətilə dindarları və kənd sakinlərini təbrik edərək deyib: Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına uyğun olaraq Şeyx Həzrətlərinin anadan olmasının 70, Şeyxülislamlıq fəaliyyətinin 40 illiyi ölkəmizdə qeyd olunur. İnsanın dəyəri onun əməyindədir. Zəhmət insanı şəxsiyyətə, ölkələri isə qüdrətli dövlətə çevirir. Şeyx Həzrətlərinin də bu illər ərzində zəhməti onun şəxsiyyət kimi formalaşmasına səbəb olmuşdur. Şeyxülislam Allahşükür Paşazadə Naxçıvanın qazısı olmuş, SSRİ Ali Sovetinin və Azərbaycan Milli Məclisinin deputatı seçilmişdir. Naxçıvanda onun adının əbədiləşdirilməsi Şeyxülislama göstərilən ehtiramın ifadəsidir. Çünki Allahşükür Paşazadə kimi dəyərli insanların fəaliyyəti nəticəsində bu gün ölkəmizdə dini sabitlik hökm sürür.

Ali Məclisin Sədri Allahşükür Paşazadəyə uzun ömür, cansağlığı arzulayıb, məscidin tikilməsində əməyi olanlara təşəkkürünü bildirib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə məsciddə yaradılan şəraitlə tanış olublar.

Məlumat verilib ki, məsciddə axund otağı, qadın və kişi ibadət zalları, eləcə də digər otaqlar yerləşir. Minarəsinin hündürlüyü 19 metr olan məscidin həyətində dəstəmaz yeri tikilib, geniş abadlıq işləri aparılıb, işıqlandırma və suvarma sistemləri qurulub, istilik sistemi ilə təmin edilib.

Sonra məsciddə ilk namaz qılınıb, dualar oxunub. Ali Məclisin Sədri sakinlərlə görüşüb.

Sakinlərdən Adil Möhsümov və Rza Allahyarov yaradılan şəraitə, göstərilən diqqətə görə kənd əhalisi adından minnətdarlıq ediblər. Rza Allahyarov deyib: “Naxçıvanda geniş quruculuq işləri aparılır. Bütün kəndlərimiz abadlaşır. Vaxtilə biz kənddə çox çətinliklərlə üzləşirdik. Lakin Ulu Öndərimizin siyasi xətti Azərbaycanı, onun hər bir guşəsini xoş günlərə qovuşdurdu. Artıq kəndlərimizdə sosial obyektlərlə yanaşı, məscidlər də tikilir. Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha da inkişaf edir. Biz sakinlər, xalqımız ölkə Prezidentinin yanındayıq, onun siyasətini dəstəkləyirik”.

Dindar Ağəli İsaqov deyib: “Ali Məclis Sədrinin hər gəlişi rayonumuza yenilik gətirir. Yeni binalar, xəstəxanalar tikilir, yollar çəkilir. Bu gün ən ucqar kəndlərimiz belə elektrik enerjisi və təbii qazla təmin olunub. Muxtar respublikanın hansı guşəsinə ayaq qoysan, orada yeniliyin, abadlığın, səliqə-sahmanın şahidi olursan. Bu gün kənd məscidinin istifadəyə verilməsi də dindarlara və kənd sakinlərinə hədiyyədir. Dövlətimizin gündən-günə qüdrətlənməsi üçün namazımızda dualar edirik. Elmlə din vəhdət təşkil etməlidir. Əgər elm dindən ayrıdırsa uçurum, din elmdən ayrıdırsa xurafatdır. Muxtar respublikamızda başqa sahələr kimi, dinimizə də xüsusi qayğı ilə yanaşılır, məscidlər tikilir. Hər bir kənddən, şəhərdən azan səsi gəlir. Azan səsi gələn yerdə isə xeyir-bərəkət, birlik və rifah olar”.

Ali Məclisin Sədri deyib ki, bu gün ölkəmizdə sabitlik və inkişaf vardır. Bunlar olan yerdə isə insanlara qayğı göstərilir, onların yaşayışı üçün hərtərəfli şərait yaradılır. Sakinlər də bu imkanlardan düzgün istifadə etməli, tikilənlər qorunub saxlanılmalıdır.

***

Tikinti işləri aparılarkən məscidə 550 metr uzunluğunda yeni asfalt yol salınıb, 1 körpü tikilib, 110 metr beton su kanalı çəkilib, 19 su keçidi qoyulub. Həmçinin 220 metr məsafədə sahilbərkitmə işləri aparılıb, 100 metr istinad divarı tikilib.

# Yeni Azərbaycan Partiyası "Xalq üçün" devizi ilə seçki təbliğatına start verdi

## SABUNÇU

Dünən YAP Sabunçu rayon təşkilatı 23 dekabr 2019-cu il tarixində keçiriləcək bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində qadınlarla "Xalq üçün" şüarı





ilə görüş keçirib. Görüşü Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Sabunçu rayon şöbəsinin və rayon təşkilatının sədri Mehriban Abasquliyeva ölkənin ictimai-siyasi həyatında aparıcı qüvvə olan Yeni Azərbaycan Partiyasının, bütün seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərinə də yüksək fəallıq nümayiş etdirəcəyini bildirib. O, qeyd edib ki, Yeni Azərbaycan Partiyası bütün respublika ərazisində 1606 bələdiyyə üzrə 15500 nəfər YAP üzvünün namizədliyini irəli sürüb.

M.Abasquliyeva, həmçinin, vurğulayıb ki, Yeni Azərbaycan Partiyası müasir Azərbaycan dövlətinin qurulmasında, xalqın rifahının ildən-ilə yüksəlməsində və ümummilli inkişafımızda əvəzolunmaz xidmətləri olubdur: "Məhz ölkəmizin əldə etdiyi nailiyyətlərdə qələbələ partiyası olan Yeni Azərbaycan Partiyası ümumxalq dəstəyi ilə "Xalq üçün" devizi altında qarşıdakı bələdiyyə seçkilərində də növbəti möhtəşəm uğur qazanacaqdır".

M.Abasquliyeva, həmçinin, seçiciləri həmin gün daha yüksək fəallıq nümayiş etdirərək, məntəqələrə gəlməyə və seçkilərdə YAP-ın namizədlərinə səs verməyə çağırdı.

Tədbirdə YAP Sabunçu rayon qadınlar şurasının sədri Ramidə İbrahimova, rayon təşkilatının sədr müavini Bəxtiyar Qasımov və başqaları çıxış edərək, seçiciləri 23 dekabr bələdiyyə seçkilərində fəal iştirak etməyə, ölkəmizin hərtərəfli inkişafının davamlı olması naminə Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırdılar.

## BİLƏSUVAR

"Xalq üçün" devizi ilə təbliğat-təşviqat kampaniyasına uğurla başlayan YAP Biləsuvar rayon təşkilatının seçki qərargahı bələdiyyə seçkiləri ilə əlaqədar Biləsuvar rayonu Nərimankənd və Nəsimi kəndlərində seçicilərlə görüş keçirib. Görüşdə YAP Biləsuvar rayon təşkilatı Seçki Qərargahının üzvləri Siyahət Quliyev və Əjdər Niftiyev çıxış edərək, ölkə Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu sosial və iqtisadi islahatlardan söhbət açaraq bildirib-





lər ki, 23 dekabr 2019-cu il tarixdə keçiriləcək bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən 219 namizəd irəli sürülüb. Yeni Azərbaycan Partiyası yarandığı vaxtdan ölkəmizdə keçirilən bütün seçkilərdə qələbə qazandığını deyən çıxışçılar əminliklə qeyd ediblər ki, qarşıdakı növbəti bələdiyyə seçkilərində də YAP tərəfindən irəli sürülmüş namizədlər seçicilər tərəfindən dəstəklənəcək.

Görüşdə çıxış edən Nərimankənd kənd sakinləri Ərəstun Quliyev, Fikrət Eynullayev, Nəsimi kənd sakinləri Zakir Baxşıyev, Təbriz Sucayev bildiriblər ki, hamılıqla seçki günü məntəqələrə gələrək, Yeni Azəbaycan Partiyasının irəli sürdüyü namizədlərə səs verəcəklər.

## MASALLI

YAP Masallı rayon təşkilatı aparatında ilk dəfə səs verəcək gənclərlə görüş zamanı rayon təşkilatının sədri Seyfəddin Əliyev açaraq bələdiyyə seçkilərindən, bu seçkilərlə əlaqədar indiyə qədər görülmüş işlərdən, dövlətimizin yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə olan yüksək diq-




qət və qayğısından, eləcə də, gələcəkdə bələdiyyələrin qarşısında duran vəzifələrdən danışıb. S.Əliyev həyata keçirilən irimiqyaslı layihələrin, məhz Yeni Azəbaycan Partiyasının və onun Sədri, ölkə Prezidenti İlham Əliyevin adıyla bağlı olduğunu və bütün bunların hər bir vətəndaşın gözü qabağında baş verdiyini gənclərin diqqətinə çatdırıb. O, "Xalq üçün" devizi ilə təşviqat kampaniyasına uğurla başlayan YAP tərəfindən irəli sürülən namizədlərin xalqımız tərəfindən yekdil dəstək alacağına inandığını bildirərək, gəncləri Yeni Azərbaycan Partiyasının Seçki Proqramı ilə tanış edib, ölkəmizin hərtərəfli inkişafının davamlı olması naminə Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıb.

Tədbirdə iştirak edən YAP Masallı rayon təşkilatı gənclər birliyinin sədri Bəxtim Qarayev, gənclərdən Aytən Əliye-



va və başqaları Azərbaycanda həyata keçirilən dövlət-gənclər siyasətinin əsas istiqamətləri, gənclərə göstərilən diqqət və qayğıdan danışıblar və 23 dekabrda keçiriləcək bələdiyyə seçkilərində fəal iştirak edəcəklərinə, Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləyəcəklərini bildiriblər.

## XAÇMAZ

YAP Xaçmaz rayon təşkilatı 23 dekabr 2019-cu il tarixdə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar təşviqat kampaniyası davam edir. İlk dəfə səs verən gənclər və rayon xidmət təşkilatı üzvləri ilə görüş zamanı YAP Xaçmaz rayon





təşkilatının sədri Şəmsəddin Xanbabayev çıxış edərək bildirib ki, YAP bu seçkilərə də ciddi hazırlaşıb. Ş.Xanbabayev, onu da vurğulayıb ki, bu gün dövlət başçısı İlham Əliyevin uğurlu inqilabi islahatları xalqımızın rifahı naminə hesablanmış uğurlu islahatlardır və bu gün hər bir seçici belə firavan ölkəmizin inkişafı naminə qarşıdakı bələdiyyə seçkilərində hamılıqla fəallıq nümayiş etdirməli və partiyamızın namizəd-

# Yeni Azərbaycan Partiyası “Xalq üçün” devizi ilə seçki təbliğatına start verdi

lərinə səs verməlidir.

Tədbirdə ilk dəfə səs verən Kərəm Bayramov, Amil Rəhimov, Abasyar Heydərov, Bəylər Hacımirzəyev, Süraya Əmirova, Azim Davudov və başqaları çıxış edərək bələdiyyə seçkilərində daha fəal iştirak edəcəklərini bildirməklə, partiyanın qələbəsini təmin etməyə çalışacaqlarını bildiriblər.

## TƏRTƏR

YAP Mərkəzi Seçki Qərargahının Tərtər rayon şöbəsi tərəfindən bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP tərəfindən namizədlikləri irəli sürülmüş bələdiyyə üzvlüyünə namizədlər və seçicilərlə Buruc və Səhləbad kənd və Tərtər şəhər bələdiyyələri üzrə görüşlər keçirilib. Görüşlərdə YAP seçki qərargahı Tərtər rayon şöbəsinin sədri Ramiz Şabanov bələdiyyə seçkilərində YAP-ın səlahiyyətli nümayəndəsi Kamil Məmmədov, rayon seçki qərargahı yanında fəaliyyət göstərən təbliğat qrupunun üzvlərindən Elnur Abbasov və Zahid İbrahimov iştirak ediblər.






Hər üç görüşdə YAP rayon təşkilatının sədri Ramiz Şabanov ölkəmizdə 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıtdığı andan başlayaraq Azərbaycanda hüquqi-demokratik və sivil qaydalara, qanunçuluğun aliliyinə söykənən dövlət quruculuğu bərqərar olunmağa başladığını, 1995-ci ildə ölkədə müstəqil Azərbaycanın Ana Qanunu Konstitusiyamızın qəbulundan sonra ölkəmizdə parlament və bələdiyyələrə seçki təcrübəsi əldə olunduğunu, 1999-cu ildə Azərbaycanda, ilk dəfə olaraq, yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə seçkilər keçirildi. Bu yeni orqanın formalaşdırılması və bu sahədə təcrübələrin toplanılması başa çatdırıldığını, artıq ölkəmizdə 5-ci dəfədir ki, bələdiyyə seçkiləri keçirildiyin bildirib: “Builki seçkilərdə də Yeni Azərbaycan Partiyası bütün bələdiyyələr üzrə öz namizədlərini irəli sürüb. Hakim partiya kimi fəaliyyətdə olduğu 26 il ərzində, partiyamız özünün yürütdüyü daxili və xarici siyasəti ilə xalqın dərin rəğbətini qazanaraq, ümumxalq partiyası statusunu əldə etmişdir. Hesab edirəm ki, Yeni Azərbaycan Partiyasının daim xalqla birgə olaraq ölkəmizin çiçəklənməsində göstərdiyi xidmətlərlə nəzərə alınmaqla, bu ilki bələdiyyə seçkilərində seçicilərimizin böyük əksəriyyəti YAP-ın namizədlərinə səs verəcəklər”.

Görüşdə YAP rayon təşkilatının təbliğat-təşviqat qrupunun üzvlərindən Elnur Abbasov, Zahid İbrahimov, Buruc bələdiyyəsinə namizədlərdən Pərvin Misirova, Vəfa Quliyeva, Ülviyyə Orucova, kənd sakinlərindən Zülfüqar Əliyev, Nüşabə Misirova, Səhləbad kənd sakinlərindən İman Almuradov, Xəyal Aslanov, Gülbəniz Aslanova, bələdiyyə üzvlüyünə namizədlərdən Səbuhi İbrahimov, Gündüz İbrahimov, Tərtər bələdiyyəsinə namizədliyi irəli sürülmüş gənclərdən Orxan Tanrıverdizadə, Fərid Nuriyev, Etibar Nuriyev, Tərtər şəhər sakinləri Nəcmiyyə Zeynalzadə, Sahib Həsənov və başqaları da çıxış edərək, qarşıdakı bələdiyyə seçkilərinin şəffaf və demokratik qaydada keçirilməsi üçün görüləsi işlərdən, seçkilərdə YAP-ın namizədlərinin qalib olmaları üçün həyata keçirilməli olan tədbirlərdən danışıblar.

## AĞSTAFA

YAP Ağstafa rayon təşkilatı bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüşü Yeni Azərbaycan Partiyasının fəalları ilə keçirib. YAP Ağstafa rayon təşkilatının qərargahında keçirilən görüşdə rayon təşkilatının sədri Ramiz Tatarov çıxış edərək, hər beş ildən bir keçirilən bələdiyyə seçkilərinin ölkəmizin siyasi həyatında mühüm yer tutduğunu, bu seçkilərdə də seçicilərin daha fəal və ölkəmizin hər tərəfli inkişafının davamlı olması naminə Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini bildirib.





Görüşdə partiya fəallarından Kamran Abbasov, Azər Hüseynov, Mətanət İsayeva, Taleh Hüseynov və digərləri çıxış edərək seçkilərinin ədalətli, şəffaf, müvafiq seçki qanunvericiliyinə uyğun formada həyata keçiriləcəyini, Yeni Azərbaycan Partiyasının yenidən qalib gələcəyinə əmin olduqlarını söyləyiblər.

## GÖYÇAY

YAP Göyçay rayon təşkilatı 23 dekabr 2019-cu ildə keçiriləcək bələdiyyə seçkilərində təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Çərəkə, Qarabaqqal kəndlərində, növbəti görüş isə Çaxırlı kəndində keçirilib. Görüşü YAP Göyçay rayon Seçki Qərargahının, Yeni Azərbaycan Partiyası Göyçay rayon təşkilatının sədri Sahib Şükürov açaraq, Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin apardığı uğurlu islahatlardan, bələdiyyə seçkilərindən, bu seçkilərlə əlaqədar indiyə qədər görülmüş işlərdən geniş söhbət açıb. S.Şükürov qeyd edib ki, Yeni Azərbaycan Partiyasının Azərbaycan dövlətinin qurulmasında, dövlətimizin müstəqilliyinin qorunmasında, əbədi, daimi olmasında, xalqın rifahının ildən-ilə yüksəlməsində əvəzolunmaz xidmətləri olubdur.






Tədbirdə YAP Göyçay rayon təşkilatı təbliğat qrupunun üzvləri Rasim Hüseynov, Zenfira Əliyeva, Xəlil Orucov, Çaxırlı bələdiyyəsi üzrə namizədlərdən Sevil Qədirova, Vidadi İbrahimov, Ramazan Hüseynov və başqaları çıxış edərək, YAP tərəfindən irəli sürülən namizədlərə uğurlar arzu edərə, seçki günü fəallıq nümayiş etdirərək, elliliklə seçki məntəqələrinə gəlməyə, YAP-ın namizədlərinə səs verməyə çağırdılar.

## BALAKƏN

YAP Balakən rayon təşkilatı bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası ilə bağlı rayonun Xalatala kəndində Yeni Azərbaycan Partiyası tərəfindən bələdiyyə üzvlüyünə namizədlərlə görüş zamanı rayon seçki qərargahının üzvü Ömər Osmanov çıxış edərək, bələdiyyə seçkilərində qələbə qazanmaq üçün görüləcək işlərdən danışıb.




Ardı Səh. 10

# Yeni Azərbaycan Partiyası "Xalq üçün" devizi ilə seçki təbliğatına start verdi

Əvvəli Səh. 9

Partiya fəallardan Osif Zalxayev, Xəqani Nəbiyev və digərləri çıxış edərək, 23 dekabr seçkilərində əhalinin fəallı-



ğından, seçki qələbəsinə aparan uğurlardan söz açaraq, partiyamızın namizədlərinin qalib olacaqlarını bildiriblər.

## SƏBAİL

Yeni Azərbaycan Partiyasının bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Səbail rayonunun Badamdar qəsəbəsində rayon seçiciləri ilə "Xalq üçün" şüarı altında görüş keçirilib.






Dövlət Himninin səsləndirilməsi ilə başlayan görüşdə Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndəsi, YAP-ın Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin sədri, professor Şəmsəddin Hacıyev ölkəmizin ictimai-siyasi həyatında baş verən proseslər haqqında görüş iştirakçılarına ətraflı məlumat verərək bildirib ki, mahiyyət etibarilə 2019-cu il Azərbaycanda hərtərəfli islahatlar ili olub: "2018-ci ildən başlayaraq Azərbaycan özünün sosial-iqtisadi inkişafında tamamilə yeni keyfiyyət mərhələsinə qədəm qoymuş və ölkəmizdə bu gün də davam edən sistemli islahatlar nəticəsində, cəmiyyətin bütün sahələrini əhatə edən ciddi və inqilabi dəyişikliklər baş vermişdir. Ölkəmizdə həyata keçirilən və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə istiqamətlənmiş geniş sosial-iqtisadi proqramların icrası, Prezident İlham Əliyevin Azərbaycan xalqının milli maraqlarına xidmət edən cəsarətli və müstəqil siyasəti, eləcə də, Azərbaycanın beynəlxalq nüfuzunun ildən-ilə yüksəlməsinə səbəb olubdur. Nəticə etibarilə ölkəmiz dünya ictimaiyyəti tərəfindən islahatçı dövlət kimi qəbul olunur".

Ş.Hacıyev Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatındakı aparıcı rolundan, müasir Azərbaycan dövlətinin qurulmasında, xalqın rifahının ildən-ilə yüksəlməsində və ümummilli inkişafımızda əvəzolunmaz xidmətləri olduğunu vurğulayıb. "YAP ötən dövr ərzində sübut etmişdir ki, partiyamız ümumxalq dəstəyi və etimadı qazanan Qələbələr Partiyasıdır. "Əminik ki, "Xalq üçün" devizi ilə getdiyimiz bu bələdiyyə seçkilərində də xalqımız YAP namizədlərini dəstəkləyəcək və partiyamız bu seçkilərdə də növbəti möhtəşəm uğurunu qazanacaqdır" deyən deputat Azərbaycanda 1999-cu ildən fəaliyyət göstərən Bələdiyyə İnstitutunun inkişafı, başlıca məqsədləri və fəaliyyət mexanizmləri haqqında seçicilərə ətraflı məlumat verib. Millət vəkili qeyd edib ki, yerli idarəetmə institutu olan bələdiyyələrin ölkəmizdə formalaşması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır, məhz 1995-ci ildə qəbul olunmuş ilk müstəqil konstitusiyamızda bələdiyyələrin fəaliyyəti üçün müvafiq qanunvericilik bazası formalaşdırılmışdır. Hazırda bələdiyyələrin cəmiyyətimizdə rolu ildən-ilə artır və onların səmərəli fəaliyyətinin təşkili üçün zəruri qanunvericilik bazası və müvafiq strukturlar tam formalaşıb. Bələdiyyələr qarşısında duran vəzifələr və görüləcək işlər haqqında rayon sakinlərinə ətraflı məlumat verən deputat bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində mövcud potensial, resurslar və onlardan səmərəli istifadə yollarını, bələdiyyə büdcəsinin artırılması üçün qanunamüvafiq fiskal yığımların mənbələrini göstərdi.

Ş.Hacıyev İDEA İctimai Birliyinin təşkilatçılığı və Səbail rayon icra hakimiyyətinin dəstəyi ilə "Abad məhəllə" layihəsi çərçivəsində Badamdar qəsəbəsində təmir olunan və əhalinin istifadəsinə verilən abad həyətləri xüsusi qeyd etdi.

Badamdar bələdiyyəsinin hazırda fəaliyyətdə olan sədri Təzəxan Məmmədov, ötən dövr ərzində, Badamdar bələdiyyəsi tərəfindən görülən işlər haqqında məlumat verib.

Görüşdə YAP Səbail rayon "Badamdar qəsəbəsi sakinləri" ərazi ilk partiya təşkilatının sədri Natiq Abbasov, YAP-ın Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin qərargah üzvü, xalq artisti Hacı İsmayılov və digərləri bələdiyyələrin fəaliyyətindən danışaraq, seçiləcək yeni bələdiyyə üzvlərinə gələcək fəaliyyətlərində uğurlar arzu ediblər.

Görüşdə Badamdar bələdiyyəsinə seçkilərdə iştirak edən namizədlər - Budaqova Məhəbbət Rəşid qızı, Zamanov Samir Elman oğlu, İmaməliyev Asim Xanlar oğlu, Abdullayeva Nailə Əkrəm qızı, İsmayılov Aydəm İsmayıl oğlu, Quliyev Fariz Fəlah oğlu, Yusifova Təranə Mikayıl qızı, Sultanzadə Mirzə İmran oğlu, Həsənova Xədicə Fərrux qızı, Əhmədov Zaur Etibar oğlu, Əmrəliyeva İradə Böyükağa qızı və Həsənov Samir Qadir oğlu çıxış edərək, seçicilərə seçki platformaları haqqında məlumat veriblər.

Görüşdə çıxış edən Badamdar qəsəbəsi sakinləri ölkəmizdə gedən dinamik inkişaf və tərəqqi, vətəndaşa göstərilən diqqət və qayğı üçün ölkə başçısına minnətdar olduqlarını, bu siyasəti ürəkdən dəstəklədiklərini və seçkilərdə iştirak edərək, YAP namizədlərinə səs verəcəklərini bildiriblər.

## DAŞKƏSƏN

Yeni Azərbaycan Partiyasının Daşkəsən rayon təşkilatında yaradılmış seçki qərargahının 23 dekabrda bələdiyyə seçkilərinin keçirilməsi ilə bağlı iclası keçirilib. İclasda ida-





rə, müəssisə və təşkilat rəhbərləri, YAP fəalları, rayon təşkilatının şura üzvləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak etdiyi tədbirdə Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev 23 dekabrda keçiriləcək bələdiyyə seçkilərinə hazırlıqla bağlı Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq seçki məntəqələrinin rabitə, elektrik enerjisi, seçki avadanlıqları, seçki məntəqələrinin mühafizə olunması ilə bağlı aidiyyəti qurumların rəhbərlərinə müvafiq tapşırıqlarını verib.

Tədbirdə YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçuyev partiya fəallarının seçkiqabağı təbliğat işlərinə hazırlıqla bağlı iclas iştirakçılarına məlumat verib. O, bələdiyyə üzvlüyünə namizədliyi qeydə alınmış bütün namizədlərə təbliğat işlərinin aparılması sahəsində eyni şəraitin yaradıldığını bildirib.

Yekunda yığıncaq iştirakçıları, əmin olduqlarını söyləyiblər ki, 23 dekabrda bələdiyyə seçkiləri yüksək səviyyədə, şəffaf və tam demokratik şəraitdə keçəcək, hər bir seçici öz istədiyi namizədlərə sərbəst şəkildə səs vermək imkanı əldə edəcək.

## ŞƏMKİR

Şəmkir rayonunda bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası uğurla davam edir. YAP Şəmkir rayon seçki qərərhagının, rayon təşkilatının sədri Fəxrəddin Vəliyev görüşdə çıxış edərək bələdiyyə seçkilərindən, bu seçkilərlə əlaqədar indiyə qədər görülən işlərdən, dövlətimizin yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə olan yüksək diqqət və qayğısından, eləcə də, gələcəkdə bələdiyyələrin qarşısında duran vəzifələrdən danışıb.





F.Vəliyev həyata keçirilən irimiqyaslı layihələrin, məhz Yeni Azəbaycan Partiyasının və onun Sədri, ölkə Prezidenti İlham Əliyevin adıyla bağlı olduğunu və bütün bunların hər bir vətəndaşın gözü qarşısında baş verdiyini seçicilərin diqqətinə çatdırıb. YAP tərəfindən irəli sürülən namizədlərin xalqımız tərəfindən yekdil dəstək alacağına inandığını vurğulayaraq, seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstək olmağa çağırıb.

Görüşdə çıxış edən təbliğat qrupunun üzvü Məcid Şıxılıniski bildirib ki, Şəmkir rayon sakinlərinin YAP-a, partiyanın Sədri, ölkə Prezidenti İlham Əliyevə inamı çox güclüdür: "Şəmkirlilər bu inamı keçirilən bütün seçkilərdə nümayiş etdirib. Zəngin seçki təcrübəsinə malik olan rayonumuzda bütün seçki proseslərində hər zaman yüksək seçici fəallığı nümayiş olunubdur. Əminliklə deyə bilərik ki, bələdiyyə seçkiləri də rayonumuzda uğurla keçəcək, seçicilərimiz Yeni Azərbaycan Partiyasının namizədlərinə böyük dəstək olacaq və onlara səs verəcəklər".

Yeni Azərbaycan Partiyası tərəfindən Şəmkir bələdiyyəsi üzvlüyünə namizədlikləri irəli sürülən 15 nəfər adından çıxış edən Vüqar Həsənov onlara YAP tərəfindən göstərilən diqqətə görə minnətdarlıqlarını bildirib və bu etimadı öz əməli işləri ilə doğruldacaqlarını bəyan edib.

Ardı Səh. 11

# Yeni Azərbaycan Partiyası "Xalq üçün" devizi ilə seçki təbliğatına start verdi

Əvvəli Səh. 10

## ZƏRDAB

Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatı bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Təbliğat kampaniyası çərçivəsində növbəti görüşlər rayonun Çallı və Alıcanlı kəndlərində I Alıcanlı II Alıcanlı Cilovxanlı və Məlikmudlu kəndlərində keçirilib. Tədbirləri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının və rayon Seçki Qərargahının sədri Pərvin Mahmudova bildirib ki, bələdiyyələr daim vətəndaşların mənafeləri naminə yerli əhəmiyyətli məsələlərin həllində iştirak edir, sakinlərin etibarını qazanmağa və cə-







miyyətimizdə özünə məxsus yer tutmağa səy göstərir. Ötən dövrdə bələdiyyələr müsbət təcrübə qazanıb və onların cəmiyyətdə rolu artıb. Natiq, həmçinin, qeyd edib ki, bütün siyasi kampaniyaları qələbə ilə başa vuran Yeni Azərbaycan Partiyası dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyasını mütəşəkkilliklə davam etdirir: "Rayonumuzda da, bu kampaniya səmərəli və mütəşəkkil qaydada aparılır. İnanıram ki, rayon sakinləri arasında nüfuzu olan namizədlərimiz bu seçkidə də qalib olacaqlar".

Daha sonra YAP Zərdab rayon təbliğat-təşviqat qrupunun üzvləri Səbuhi Kərimov, Gülağa İsgəndərov, Ziyad Xancanov,Rəmzi Şirinov, Rüxsarə Eminova, Fiqura Abbasova çıxış edərək, bildiriblər ki, Azərbaycan demokratik inkişaf yolunda dinamik addımlarla irəliləyir. Bildirilib ki, bütün bunlar onu göstərir ki, Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin nəticəsi inkişaf və sabitlikdir. Ona görə də, Zərdab rayonu ictimaiyyəti bu inkişafa və sabitliyə səs verməklə növbəti dəfə Yeni Azərbaycan Partiyasının namizədlərinə etimad göstərməlidirlər".

Tədbirlər seçicilərin yüksək əhval-ruhiyyəsi ilə müşayiət olunub.

## QUBA

23 dekabr bələdiyyə seçkiləri ilə əlaqədar olaraq Quba rayonunda təbliğat-təşviqat kampaniyası uğurla davam edir. YAP Quba rayon təşkilatının seçki qərargahı rayonun Hacıhüseynli inzibati-ərazi dairəsi üzrə Hacıqayıb kəndində seçicilərlə görüş keçirilib. Görüşdə YAP Quba rayon təşkilatı təbliğat qrupunun üzvləri, 250 nəfərə yaxın seçici iştirak edib.

Tədbiri giriş sözü Yeni Azərbaycan Partiyasının Bələdiyyə seçkilərində səlahiyyətli nümayəndəsi, Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının sədri Yusif Abidov açaraq bələdiyyə seçkilərindən, bu seçkilərlə əlaqədar indiyə qədər görülmüş işlərdən, dövlətimizin yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə olan yüksək diqqət və qayğısından, eləcə də, gələcəkdə bələdiyyələrin qarşısında duran vəzifələrdən danışmışdır.

O, "Xalq üçün" devizi ilə təşviqat kampaniyasına uğurla başlayan YAP tərəfindən irəli sürülən namizədlərin xalqımız tərəfindən yekdil dəstək alacağına inandığını bildirərək, seçiciləri Yeni Azərbaycan Partiyasının Seçki Proqramı ilə tanış edib. Görüşdə çıxış edən təbliğat qrupunun üzvü, rayon maliyyə idarəsinin müdiri Ruslan Hacıyev bildirib ki, Quba rayon sakinlərinin YAP-a, partiyanın Sədri, ölkə Prezidenti İlham Əliyevə inamı çox güclüdür:"Qubalılar bu inamı keçirilən bütün seçkilərdə nümayiş etdirmişlər. Zəngin seçki təcrübəsinə malik olan rayonumuzda bütün seçki proseslərində hər zaman yüksək seçici fəallığı nümayiş olunubdur. Əminliklə deyə bilərik ki, bələdiyyə seçkiləri də rayonumuzda uğurla keçəcək, seçicilərimiz Yeni Azərbaycan Partiyasının namizədlərinə böyük dəstək olacaq və onlara səs verəcəklər".

Yeni Azərbaycan Partiyası tərəfindən Hacıhüseynli Bələdiyyəsinin üzvlüyünə namizədlikləri irəli sürülən 9 nəfər adından çıxış edən Rüfəddin Hacıyev və Almaz Daşdəmirov onlara YAP tərəfindən göstərilən diqqətə görə minnətdarlıqlarını bildirib və bu etimadı öz əməli işləri ilə doğruldacaqlarını bəyan edib.

## AĞDAŞ

Ağdaş rayonunda dekabrın 23-də keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Seçicilərlə növbəti görüşlər rayonun Şəmsabad və Birinci Aral kəndlərində keçirilib.

Şəmsabad kəndində keçirilən görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyasının bələdiyyə seçkilərində səlahiyyətli nümayəndəsi, Yeni Azərbaycan Partiyası Seçki Qərargahı Ağdaş rayon şöbəsinin üzvü İsa Eminov bələdiyyə seçkiləri ilə bağlı geniş məlumat verib. O bildirib ki, YAP tərəfindən Ağdaş rayonu üzrə 26 bələdiyyəyə 242 namizəd irəli sürülüb və bu namizədlər 89 saylı Göyçay-Ağdaş və 90 saylı Ağdaş Seçki Dairələri tərəfindən qeydə alınıb. Yeni Azərbaycan Partiyasının növbəti bələdiyyə seçkilərinə "Xalq üçün" devizi altında çox ciddi proqramla getdiyini vurğulayan İ.Eminov görüş iştirakçıların ötən beş il ərzində görülmüş işlərlə tanış edib. YAP-ın Seçki Proqramında öz əksini tapan və növbəti beş ildə həyata keçirilməsi nəzərdə tutulan layihə və işlər barədə danışıb.

YAP Seçki Qərargahı Ağdaş rayon şöbəsinin üzvü Anar Şahmuradov çıxışında qeyd edib ki, YAP-ın Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində ölkəmizdə yerli özünüidarə orqanları olan bələdiyyələrin fəaliyyətinin genişlənməsi üçün








münbit şərait yaranıb. Ölkə başçısı Cənab İlham Əliyevin rəhbərliyi ilə son 16 ildə gələcəyə hesablanmış əhatəli dövlət proqramlarının, genişmiqyaslı sosial və infrastruktur layihələrinin həyata keçirilməsi ölkəmizin sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoymuş, demokratik proseslərə güclü təkan vermiş, onun beynəlxalq aləmdə nüfuzunu gücləndirmişdir. Bələdiyyələr, artıq 20 ildir ki, fəaliyyət göstərir, Azərbaycanda aparılan köklü islahatlar və yaşanan dinamik tərəqqi dövründə özünün inkişaf yolunu keçir, vətəndaşların maraq və mənafeləri naminə yerli əhəmiyyətli məsələlərin həllində iştirak edir, onların etibarını qazanmağa, cəmiyyətimizdə özünəməxsus yer tutmağa səy göstərir, fəallıqlarını artırır, öz səlahiyyətləri çərçivəsində konkret işlər görürlər.

Görüşdə YAP tərəfindən Şəmsabad bələdiyyəsi üzvlü-



yünə namizədliyi irəli sürülən Səbinə Mehdiyeva çıxışında onlara partiya tərəfindən göstərilən bu etimadı yüksək qiymətləndirərək, minnətdarlığını bildirib, bu etimadı öz əməli işləri ilə doğruldacaqlarını bildirib.

Birinci Aral kəndində keçirilən görüşdə çıxış edən YAP Seçki Qərargahı Ağdaş rayon şöbəsinin üzvü Anar Şahmuradov qarşıdan gələn bələdiyyə seçkilərindən, dövlətimizin yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə olan yüksək diqqət və qayğısından, eləcə də gələcəkdə bələdiyyələrin qarşısında duran vəzifələrdən danışıb. A.Şahmuradov seçiciləri bələdiyyə seçkilərində fəallıq göstərməyə və YAP-ın namizədlərinə səs verməyə çağırıb.

Görüşdə YAP tərəfindən Xosrov bələdiyyəsinin üzvlüyünə namizədliyinin irəli sürülməsini yüksək qiymətləndirən Səyyah Rəhimli çıxışında ölkəmizdə yerli özünüidarəetmə orqanlarının səmərəli fəaliyyəti üçün dövlət tərəfindən sistemli tədbirlərin həyata keçirilməsindən, mükəmməl qanunvericilik bazasının yaradılmasından, ölkəmizdə bələdiyyə institutunun tam formalaşmasından danışıb.

***NƏZAKƏT ƏLƏDDİNQIZI***
***ZÜMRÜD BAYRAMOVA***
***RƏFİQƏ HÜSEYNOVA***

# Konstitusiya Məhkəməsi Milli Məclisin buraxılmasının Konstitusiyaya uyğun olması barədə qərar qəbul edib



***Dekabrın 4-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun iclası keçirilib.***

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olub-olmamasına dair sorğusuna baxılıb.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev iclası açaraq Plenumun tərkibini elan edib və müzakirəyə çıxarılan məsələ barədə məlumat verib.

Sonra F.Abdullayev sözü məruzəçi hakim, Konstitusiya Məhkəməsinin hakimi Rafael Qvaladzeyə verib.

Rafael Qvaladze çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət edərək "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli qərarının Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinin 1-ci hissəsinə uyğunluğunun yoxlanılmasını xahiş edib. Azərbaycan Respublikası Prezidentinin sorğusunda göstərilib ki, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 99 səs çoxluğu ilə Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə qərar qəbul olunub. Həmin qərarla Azərbaycan Respublikasının Prezidentindən Milli Məclisin Azərbaycan Respublikasının Konstitusiyasının 981-ci maddəsinə əsasən buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi xahiş edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti hesab edir ki, Milli Məclisin qərarı üzrə yekun qərar qəbul etməzdən əvvəl hazırkı şəraitdə Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinə uyğunluğuna dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin mövqeyinin öyrənilməsi zəruridir.

Sorğuverən tərəfin nümayəndəsi, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimov çıxış edərək bildirib ki, Milli Məclis 2019-cu il dekabrın 2-də "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" qərar qəbul edib. Həmin qərarda Azərbaycan Respublikası Prezidentindən Milli Məclisin buraxılması və Milli Məclisə növbədənkənar seçkilərin keçirilməsi xahiş edilir. Bu qərar faktiki olaraq parlamentdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasından olan deputatların təşəbbüsü və iradəsi ilə, o cümlədən parlamentdə digər partiyalardan olan deputatlar və bitərəf deputatlarla birlikdə onların mütləq əksəriyyəti tərəfindən qəbul olunub.

Gündüz Kərimov vurğulayıb ki, Azərbaycan qanunvericiliyində yeni olan Milli Məclisin buraxılması məsələsi 2016-cı ildə referendum yolu ilə Konstitusiyaya daxil edilib. Həmin tarixdən əvvəl və sonra müasir Azərbaycan Respublikasının konstitusion tarixində bu cür ictimai, siyasi, hüquqi hadisə baş verməyib. Bu müddəa xalq tərəfindən qəbul olunandan sonra da onun tətbiqi üçün heç vaxt şərait formalaşmamış və zərurət yaranmamışdır. Nəticədə göstərilən müddəanın təsir dairəsi, onun tətbiqi mexanizmləri müəyyənləşdirilməmiş və Azərbaycanın hüquq ictimaiyyətində də bu barədə vahid fikir formalaşmamışdır. Eyni zamanda, Azərbaycanın hüquq ədəbiyyatında da bu məsələ tam araşdırılmamışdır.

Milli Məclisin buraxılmasının ictimai-siyasi və hüquqi baxımdan böyük əhəmiyyətə malik hadisə olduğunu vurğulayan şöbə müdiri deyib ki, bu hadisənin baş verməsinin nəinki birbaşa bugünkü nəticələri, həmçinin gələcək üçün də çoxşaxəli təsirləri ola bilər. Bu təsirlər arasında potensial növbəti seçkilər, yeni qərar və qanunlar, növbəti parlamentin yeni orqanları, o cümlədən deputatların indiki və gələcək statusu məsələsi ortaya çıxa bilər. Bu gün Konstitusiya Məhkəməsinin icraatında olan sorğu bu mülahizələrdən irəli gəlir. Sorğunun məqsədi Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinin hazırkı vəziyyətdə tətbiqi əsaslarının olub-olmadığını aydınlaşdırmaq, habelə onun tətbiqinin konstitusion qaydalarını, prosedurunu müəyyən etmək və bu müddəanın tətbiqi zamanı hər hansı mənfi hüquqi nəticənin qarşısını almaqdır.

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məhz bu mülahizələrə əsaslanaraq qərara alıb ki, bu sualların aydınlaşdırılması üçün onlar məhz konstitusiya icraatı çərçivəsində nəzərdən keçirilməlidir. Bu məsələləri və Konstitusiyanın 130-cü maddəsinin 3-cü hissəsinin 1-ci bəndini rəhbər tutaraq yaranmış vəziyyətdə Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli qərarı əsasında Azərbaycan Respublikasının Milli Məclisinin buraxılmasının Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olub-olmaması barədə Konstitusiya Məhkəməsinin qərar qəbul etməsini xahiş edirik", - deyə Gündüz Kərimov bildirib.

Cavabverən tərəfin nümayəndəsi, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, bir neçə gün əvvəl Milli Məclisin deputatları parlamentə növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı təşəbbüslə çıxış ediblər. Milli Məclis isə dekabrın 2-də keçirilən iclasında bu təşəbbüsə hüquqi qiymət verib və növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə müraciət edib.

"Biz - parlamentin üzvləri Azərbaycan Respublikası Prezidentinin bu məsələ ilə əlaqədar Konstitusiya Məhkəməsinə sorğu ünvanlamasına xüsusi bir dəyər veririk. Çünki Azərbaycan Prezidenti bu addımı atmaqla Azərbaycanda hüquqi dövlətin mövcudluğunu və qanunun aliliyini bir daha təsdiq etdi. Konstitusiya Məhkəməsinin verəcəyi qərar Azərbaycan dövlətçiliyi və hakimiyyət qollarının fəaliyyəti baxımından müstəsna əhəmiyyət kəsb edir", - deyə Əli Hüseynli bildirib.

Diqqətə çatdırılıb ki, Konstitusiya ilə Milli Məclisin üzərinə qoyulmuş və dövlətin həyatında müstəsna əhəmiyyət kəsb edən mühüm funksiyaları var. Dövlətimiz və xalqımız üçün müstəsna əhəmiyyət kəsb edən məsələlərdə Milli Məclisin iştirakı zəruridir. Konstitusiya məhz bu mənada qanunvericilik hakimiyyətinin dövlətdə xüsusi yerini də qeyd etmiş olur. Əlbəttə ki, Konstitusiyanın 981-ci maddəsində Milli Məclisin buraxılması müddəası qanunverici hakimiyyətin funksiyalarının dayandırıldığı kimi başa düşülməməlidir. Bu maddəyə əsasən Milli Məclisin buraxılmasının məqsədi parlamentin qərarında da qeyd edildiyi kimi, növbədənkənar seçkilərin keçirilməsidir. Konstitusiyanın 981-ci maddəsi məhz növbədənkənar, ümumiyyətlə, yeni seçkilərin keçirilməsi ilə bağlı hüquqi konstitusion bazanı yaratmış olur. Bu maddədə buraxılma qanunvericilik orqanının təkcə qanunların qəbulu ilə bağlı mövcud səlahiyyətlərini məhdudlaşdıra bilər. Amma bütövlükdə Milli Məclisin dövlətçilik üçün əhəmiyyət kəsb edən funksiyalarını - beynəlxalq təşkilatlarda təmsilçiliyi və digər funksiyalarını məhdudlaşdırmamalıdır və parlament qanunvericilik hakimiyyəti kimi fəaliyyətini davam etdirməlidir. Ümidvarıq ki, möhtərəm hakimlər Milli Məclisin deputatlarının bu arqumentlərini nəzərə alacaqlar.

Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev deyib ki, parlament dekabrın 2-də keçirilən iclasında qanunverici orqana növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət olunmasına dair Qərar qəbul edib. Səfa Mirzəyev bu məsələ ilə bağlı qərarın qəbulu zamanı Milli Məclisin buraxılması ilə əlaqədar ortaya çıxan digər məsələlərin nəzərə alınmasını xahiş edib.

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürov bildirib ki, Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının əsasları Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsində müəyyən edilib. Milli Məclisin üzvlərinin mütləq əksəriyyətində parlament fəaliyyətinin həyata keçirilməsinin mümkünsüzlüyü barədə mövqeyin formalaşması və bunun nəticəsində parlamentin öz fəaliyyətinin bundan sonra davam etdirməsinin qeyri-mümkün olması qənaətinin yaranması Milli Məclisin Konstitusiyanın 94-cü və 95-ci maddələrində təsbit olunan səlahiyyətlərini gələcəkdə aradan qaldıra bilməyən səbəblər üzündən icra edə bilməməsi kimi qiymətləndirilə bilər. Milli Məclisin Azərbaycan Respublikası Konstitusiyasının həmin maddələrində göstərilən səlahiyyətlərini aradan qaldıra bilməyən səbəblər üzündən gələcəkdə icra edə bilməməsi isə Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi zərurətini yaradır. Buna əsasən belə nəticəyə gəlmək olar ki, Milli Məclis üzvlərinin mütləq əksəriyyətində parlamentin fəaliyyətinin həyata keçirilməsinin mümkünsüzlüyü barədə mövqeyin formalaşması və bunun nəticəsində parlamentin gələcəkdə fəaliyyətini davam etdirməsi qeyri-mümkün olarsa, Milli Məclis Konstitusiyanın 94-cü və 95-ci maddələrində təsbit edilən səlahiyyətləri aradan qaldıra bilməyən səbəblər üzündən icra etməməsi hesab oluna bilər və bu əsasa görə Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və növbədənkənar parlament seçkilərinin təyin edilməsi Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinə tamamilə uyğundur.

Çıxışlardan sonra Konstitusiya Məhkəməsi Plenumunun üzvləri gündəlikdəki məsələ ilə əlaqədar qərar qəbul etmək üçün müşavirə otağına keçiblər.

***

Müşavirədən sonra Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun Qərarını oxuyub.

Qərarda deyilir ki, "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarı Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinin 1-ci hissəsinə uyğun hesab edilsin.

"Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli qərarı əsasında Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılması Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinə uyğun hesab edilsin.

Qərar elan edildiyi andan qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz. Bununla da Konstitusiya Məhkəməsi Plenumunun iclası bağlı elan edilib.

# Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatları birmənalı şəkildə dəstəkləyir

*Milli Məclisin deputatı, YAP Ağdaş rayon təşkilatının sədri Cavid Osmanovun yap.org.az-a müsahibəsi*



***- Cavid müəllim, hazırda cəmiyyətimizdə əsas müzakirə mövzusu ölkəmizdə parlament islahatlarının aparılması ilə bağlıdır. Sizcə, bu islahatları zəruri edən səbəblər nədən ibarətdir?***

- Əlbəttə ki, bu məsələnin çox ciddi əsasları var. Bilirsiniz ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkəmizdə sistemli, hərtərəfli islahatlar həyata keçirilir. İslahatlar 2019-cu ilin əvvəlindən daha geniş vüsət alıb və bir çox sahələri əhatə edir. Bu islahatlar ölkəmizin ümumi inkişafına yeni dinamizm gətirir.

Bütövlükdə, hakimiyyətin icra və məhkəmə qollarında uzun müddətdir islahatlar həyata keçirilir. Bunun nəticəsində də həm sosial-iqtisadi sahədə ciddi nailiyyətlər əldə olunub, həm də məhkəmə-hüquq sistemi əhəmiyyətli dərəcədə təkmilləşdirilib. Fikrimcə, bu islahatların hakimiyyətin qanunvericilik qolunda da islahatların aparılması Azərbaycanın ümumi inkişafına böyük töhfələr verəcək.

Bu baxımdan, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının parlamentin buraxılması haqqında təşəbbüsü və bunun əsasında Milli Məclisdə çoxluq təşkil edən partiyamızın deputatlarının müraciəti təbii qanunauyğunluqdur. Yeni Azərbaycan Partiyası yarandığı gündən ölkəmizdə siyasi sistemin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atıb, təşəbbüslər irəli sürüb. Azərbaycanın inkişafı baxımından öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirən Yeni Azərbaycan Partiyası qəbul etdiyi qərarlarla dövlətimizin inkişafına mühüm töhfələr verib. Bu baxımdan, partiyamızın parlamentin buraxılması təşəbbüsü və bunun əsasında Milli Məclisin parlamentin buraxılması və növbədənkənar parlament seçkilərinin təyin edilməsi haqqında Azərbaycan Prezidentinə müraciət edilməsi barədə qərarı tam yerində verilmiş qərardır. Bütövlükdə, islahatların yüksək nəticələrini həyatımızın ən müxtəlif sahələrində aydın şəkildə görürük. Bu mənada hesab edirəm ki, parlament islahatları da qanunvericilik sahəsinə yeni keyfiyyət dəyişiklikləri gətirəcək, ölkəmizin inkişafı yolunda daha mükəmməl, səmərəli qanunlar qəbul olunacaq.

***- Azərbaycan Prezidenti İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyinə həsr olunmuş mərasimdə cəmiyyətimiz üçün çox ciddi mesajlar verdi. Eyni zamanda, gənclərə dəyərləri tövsiyələr verdi. Bu barədə nə deyə bilərsiniz?***

- Ümumiyyətlə, Azərbaycanda dövlət tərəfindən uğurlu gənclər siyasəti həyata keçirilir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasətin nəticəsidir ki, ölkəmizdə bütün sahələrdə olduğu kimi gənclərlə iş sahəsi də uğurla inkişaf edir. Ümumiyyətlə, gələcəyini düşünən hər bir dövlətin milli inkişaf strategiyasının mühüm istiqamətlərindən birini də rasional gənclər siyasəti təşkil edir. Və bu baxımdan Azərbaycan öncül yerdə dayanır desək, heç də yanılmarıq.

Hər bir ölkədə gənclər cəmiyyətin aparıcı qüvvəsidir. Bu mənada Azərbaycanda da gənclər cəmiyyətin bütün həyatında aktiv iştirak edirlər. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin əsas məqsədlərindən biri yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etməkdir. Bakı Dövlət Universitetinin 100 illiyinə həsr olunmuş mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev gənclərə çox dəyərli tövsiyələr verdi. Azərbaycan gəncliyi bu tövsiyələri fəaliyyətlərində daim öndə tutmalıdır. Dövlətimizin çıxışının ana xətti ondan ibarətdir ki, Azərbaycan bundan sonrakı inkişafında da yalnız özünə güvənməlidir və bu prosesdə gənclərimiz aparıcı rol oynamalıdır. Gənclərimiz tariximizə sahib çıxmalı, milli adət-ənənələrimizə sadiq olmalıdır.

Müstəqillik dövründə yaşamağın gənclər üçün böyük xoşbəxtlik olduğunu vurğulayan dövlətimizin başçısı ölkəmizin hərtərəfli inkişafında gənclərin roluna toxundu, onların cəmiyyətin fəal üzvləri olduğunu söylədi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan gəncləri tariximizi dərindən bilməli, milli və vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. “Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin”-deyən dövlətimizin başçısı gənclərin qarşısında duran vəzifələrdən geniş bəhs etdi. Hesab edirəm ki, gənclər cənab Prezidentin dəyərli tövsiyələrini gələcək fəaliyyətlərinin əsas prinsipi kimi qəbul etməlidir.

***- Bu gün radikal müxalifət ölkəmizdə həyata keçirilən islahatlarla bağlı ictimaiyyətdə yanlış rəy formalaşdırmağa çalışır. Buna münasibətiniz necədir?***

- Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan nailiyyətlər xalqımız tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan xalqı həyata keçirilən səmərəli, məqsədyönlü daxili siyasətin və müstəqil xarici siyasət kursunun uğurlu nəticələrini yüksək dəyərləndirir. Dövlətimizin başçısı Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə bu məqamlara toxunaraq “...Xalq bizi dəstəkləyir və sonuncu rəy sorğuları onu göstərir. Əhalinin mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir”, - deyə bildirib. Prezident İlham Əliyev əhalinin mütləq əksəriyyətinin iqtidara alternativ görmədiyini deyib. Həqiqətən də, Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətə alternativ görmür. Bu gün özünü müxalifət adlandıran radikal, antimilli ünsürlər xalqın mənafeyinə, dövlətin maraqlarına zidd mövqedən çıxış edirlər, xəyanətkar və satqın “fəaliyyət”lə məşğuldurlar. Onlar 1990-cı illərin əvvəlində bir il hakimiyyətdə olublar, həmin bir il ərzində Azərbaycan məhv olmaq təhlükəsi ilə üz-üzə qaldı. Ona görə də, xalq onları hakimiyyətdən qovdu. Belələrinin ölkəmizin inkişafı, islahatlar prosesinə kolgə salmaq cəhdləri əbəsdir. Bu gün Azərbaycan xalqı radikal müxalifəti rədd edir. Məhz bu səbəbdəndir ki, indi kiçik bir qrup halında qalıblar. Radikallar heç vaxt məqsədlərinə çata bilməyəcəklər.

## DSX: İrandan Azərbaycana külli miqdarda narkotik maddənin keçirilməsinin qarşısı alınıb



Dövlət Sərhəd Xidmətinin (DSX) əməkdaşları narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində tədbirləri davam etdirirlər. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, cari il noyabrın 29-da Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Göytəpə” sərhəd dəstəsinin xidməti ərazisində Yardımlı rayonunun Qaravuldaş kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına doğru hərəkət edən 1 nəfər naməlum şəxsin hərəkəti sərhəd naryadı tərəfindən müşahidə edilib.

Sərhəd naryadının “dayan” əmrinə tabe olmayan sərhəd pozucusuna qarşı silahdan havaya xəbərdarlıq məqsədilə atəş açılıb, lakin sərhəd pozucusu əlindəki bağlamanı əraziyə ataraq havanın qaranlıq olmasından və relyefin mürəkkəbliyindən istifadə edərək geriyə qaçıb. Həmin ərazi dərhal qapadılaraq axtarış tədbirləri keçirilib. Nəticədə 1 ədəd qara rəngli torba içərisində ümumi çəkisi 4 kiloqram 618 qram marixuana aşkar olunaraq götürülüb. Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## Bakcell Bakutel -2019 sərgisində: ən üstün şəbəkə və müştəri təcrübəsi




Bakcell şirkəti 25-ci Yubiley Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisində iştirak edir. Şirkət öz ənənəsinə sadiq qalaraq bu il də öz stendində Azərbaycanın ən böyük mobil şəbəkəsini və ən sürətli mobil internet xidmətini, özünün son nailiyyətlərini, məhsul və xidmətlərini nümayiş etdirir, həmçinin bir sıra əyləncəli tədbirlər, maraqlı oyunlar və müsabiqələr təşkil edir. Bundan əlavə, Bakcell öz stendində şirkət üçün yeni ayrılan “099” prefiksinin də yaxın gələcəkdə istifadəyə veriləcəyini elan edir.

### Ən üstün əhatə dairəsi və ən sürətli mobil internet

“Bakutel-2019” sərgisində quraşdırılmış Bakcell stendinin qonaqları ölkədə ən geniş əhatə dairəsinə malik olan, tanınmış OOKLA şirkəti tərəfindən sınaqdan keçirilərək ardıcıl olaraq 3 dəfə Azərbaycanın ən sürətli mobil şəbəkəsi adına layiq görülmüş Bakcell şəbəkəsinin imkanları ilə tanış olmaq fürsəti qazanacaqlar.

Bu gün 8000-dən artıq baza stansiyası vasitəsilə Bakcell şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. Şirkət əhatə dairəsi və trafik buraxma qabiliyyəti baxımdan ölkənin ən geniş və sürətli 4G şəbəkəsinə malikdir.

### Mənim Bakcellim: virtual müştəri xidməti mərkəzi

Bundan əlavə, sərgi ziyarətçiləri ölkənin telekommunikasiya bazarında ilk virtual müştəri xidmətləri aləti olan “Mənim Bakcellim” mobil tətbiqetməsi ilə tanış olmaq, mobil əlavəni sınaqdan keçirib onun maraqlı və unikal funksiyaları barədə məlumat almaq imkanına malik olacaqlar. “Mənim Bakcellim” abunəçilərə məlumat mərkəzinə zəng etmədən və müştəri xidməti mərkəzinə getmədən mobil nömrə ilə istənilən əməliyyatı həyata keçirmək imkanı verir. “Mənim Bakcellim” istifadəçilərə maksimum şəffaflıq və rahatlıq, zəng olunmuş nömrələrin siyahısı, zənglərin vaxtı və müddəti və sərf olunmuş məbləğlər daxil olmaqla nömrənin istifadə tarixçəsinə aid bütün məlumatlara tam nəzarət imkanı və hətta onlayn çat kimi üstünlükləri təqdim edir.

### AppLab: Azərbaycan gəncləri üçün yeni imkanlar

Bakcell stendində həmçinin ideyaların, mobil tətbiqlərin və texnologiyaların pilot variantından istifadəyə tam hazır məhsul variantınadək çatdırılmasında gənc yerli developerlərə kömək edən AppLap proqramı və bu proqram çərçivəsində startaplar tərəfindən yaradılmış 2 layihə təqdim edilir. Buradakı Buradakı “ToWaves” ortaq maraq və oxşar fikirləri olan insanları bir araya gətirən şəbəkədir. “Bon.az” isə istifadəçilərin onlayn alış-verişdən “cashback” əldə etməsi üçün yaradılan sistemdir.

### Bakcell və “Ulduzum”dan çoxlu hədiyyələr

Bakcell şirkətinin “Bakutel 2019” stendinin ziyarətçiləri sərgidən əyləncəsiz ayrılmayacaqlar. Onlar “Ulduzum” loyallıq tərəfindən təşkil edilmiş oyunda iştirak edib şənlənməyə, hədiyyələr qazanmağa və Bakcell şirkətinin bu maraqlı loyallıq proqramı barədə məlumatlanmağa dəvət olunacaqlar. Bundan əlavə Bakcell stendində Virtual Reallıq oyunlarını oynamaq və lotereyalarda iştirak edib çoxlu hədiyyələr qazanmaq da olar.

# Tarixin zibilliyinə atılmışlara xatırlatma

## Özünə hörmət edən hər bir şəxs antidemokratik və dağıdıcı müxalifət düşərgəsini rədd edir

***Hər bir demokratik dövlətin, ümumilikdə, ölkənin milli mənafeyini ön planda tutan, xalqın problemlərini gündəmə gətirən konstruktiv müxalifətə ehtiyacı var. Belə bir siyasi qüvvənin mövcudluğu həmin ölkəyə yalnız fayda gətirə, onun inkişafında, dünya birliyinə inteqrasiyasında mühüm amilə çevrilə bilər. Demokratiya yolunu seçən və bu yolda böyük məsafə qət edən müstəqil Azərbaycan Respublikası da ölkədə konstruktiv müxalifətin formalaşmasında maraqlıdır. Ancaq təəssüf ediləcək reallıqlardan biri də budur ki, ölkəmizdəki özlərini "demokratik düşərgə" adlandıran "siyasi qüvvələr" qloballaşan, müasirləşən və xüsusilə, islahatlar yolunu tutan Azərbaycan siyasətində hələ də köhnə təfəkkürlə yaşayır, siyasi mübarizənin demokratik və sivil yollarla aparılmasının zəruriliyini dərk edə bilmirlər. Çağdaş dövr tariximizdə fəaliyyətinə yaxından bələd olduğumuz müxalif siyasi partiyaların, xüsusilə də, AXCP və Müsavatın timsalında bunu açıq-aydın görmək mümkündür.***




Beləliklə, xatırladaq ki, bu iki partiya bir dəfə Azərbaycanda hakimiyyətə gəlmişdilər. 1992-ci ildə silah gücünə iqtidara gələn AXC-Müsavat cütlüyü, hakimiyyətdə qaldığı bir il ərzində, ölkəni uçuruma sürüklədi. O vaxt Azərbaycan demək olar ki, dağılırdı, ölkəmizdə anarxiya, xaos, hərc-mərclik hökm sürürdü. Qanunsuz silahlı dəstələr, quldur dəstələri meydan sulayırdılar. Məhz o dövrün iqtidarının səriştəsizliyi nəticəsində, Azərbaycan iqtisadi böhranın məngənəsində boğulur və ölkə parçalanırdı. Həmin günlərdə məmur özbaşınalığı, korrupsiya və rüşvətxorluq gündəlik həyatımızın reallığına çevrilmişdi. Vəziyyət o həddə çatmışdı ki, mərhum Əbülfəz Əliyev 1993-cü ilin mayında keçirdiyi müşavirədə bütün dövlət strukturlarında korrupsiya və rüşvətxorluğun baş alıb getdiyini bildirmişdi. Hətta onun xəbərdarlıq xarakterli çıxışına iclas iştirakçılarının istehzalı reaksiyası da müşavirəni izləyənlərin diqqətindən yayınmamışdı.

O vaxt Azərbaycan əhalisi, artıq iqtidardakıların hansı yuvanın quşu olduqlarını yaxşı bilirdi. Ona görə də, AXC-Müsavat cütlüyü 1993-cü ilin yayında baş verən hadisələr zamanı ictimai dəstəkdən tamamilə məhrum olmuşdu. Elə xalqın dəstəyini tamamilə itirdiklərinə görə də, hakimiyyətdən getməli oldular. Çünki xalq yaxşı bilirdi ki, bu iqtidarda olanlar Azərbaycanın parçalanmasına, dağılmasına, torpaqlarımızın düşmən işğalına məruz qalmasına göz yumaraq, korrupsiya və rüşvətxorluqlar nəticəsində, xalqı, dövlətin büdcəsini, qızıl fondunu çapıb-talamaq yolu ilə var-dövlət yığmaqla məşğuldurlar. Bu səbəbdən, hər kəsin qəlbində AXC-Müsavat cütlüyünə qarşı dərin nifrət kök salmışdı. Hətta bu nifrət o dərəcədə güclü idi ki, xalq indiyədək keçirilən bütün seçkilərdə həmin düşərgəyə, birmənalı olaraq "YOX!" dedi.

Hər kəs əminliklə deyə bilər ki, siyasətdə təcrübəsizliyə, səriştəsizliyə, qorxaqlığa, qətiyyətsizliyə yer yoxdur. Bütün bu mənfi keyfiyyətlər isə, AXC-Müsavat cütlüyündə özünü qabarıq göstərmişdi. Gəncədə baş verən hadisələr zamanı müxalifətin Ulu Öndər Heydər Əliyevə yalvararaq onu Bakıya dəvət etməsi də onların öz canlarının hayına qalması səbəbindən, idi. Halbuki məhz AXC-Müsavat hakimiyyəti 1992-ci ilin oktyabrın 24-də Naxçıvan Muxtar Respublikasında hakimiyyət çevrilişinə cəhd göstərmişdi. Onların məqsədi naxçıvanlılar tərəfindən Ali Məclisin sədri seçilən Ümummilli Liderimiz Heydər Əliyevi bu vəzifədən uzaqlaşdırmaq idi. Ancaq alınmadı. Bu hadisədən xəbər tutan Naxçıvan camaatı ayağa qalxdı və AXC-Müsavat ünsürlərinə tutarlı cavab verdi.

Beləliklə, qeyd etdiyimiz kimi, AXC-Müsavat cütlüyü də özlərinin təhlükəsizliyi xatirinə, Ümummilli Liderimizi Bakıya dəvət etdilər. 1993-cü il iyunun 15-də Heydər Əliyev Bakıya gəldi, ölkəmizi xaosdan, anarxiyadan, parçalanmaqdan, yox olmaqdan xilas etmək üçün gərgin fəaliyyətə başladı. Azərbaycanda siyasi sabitlik yarandı. Aparılan məqsədyönlü və ardıcıl iqtisadi siyasət nəticəsində, bu gün ölkəmiz böyük sürətlə inkişaf edir. Heydər Əliyevin uğurlu siyasi kursunu yeni çalarlarla zənginləşdirərək, davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin qarşıya qoyduğu bütün vəzifələrin icra olunması, çoxşaxəli iqtisadiyyatın formalaşdırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi, mühüm əhəmiyyətə malik sosial proqramların reallaşdırılması nəticəsində ölkəmiz, bütövlükdə, Cənubi Qafqaz regionunun lider dövlətinə çevrilmişdir.

Bəli, 1993-cü ildən bugünədək Azərbaycan tamamilə dəyişib və inkişaf edib. Ölkədə dəyişməyən təkcə radikal müxalifət düşərgəsidir. Onlar 1992-ci, 1993-cü ildə necə olublarsa, bu gün də o vəziyyətdə qalıblar. Bu gün də həmin düşərgənin liderləri siyasi mübarizəni intellektual səviyyədə deyil, küçə təfəkkürü səviyyəsində aparırlar. Müxalif siyasi partiyaların daxilində isə, heç bir müsbət dəyişiklik yoxdur. Yeni dünyagörüşünə malik gənclərə qarşı ənənəvi dözümsüzlük həm AXCP-yə, həm də Müsavata xas olan xüsusiyyətlərdir. 1993-cü ildən bugünədək heç bir siyasi uğura imza atmayan İsa Qəmbərin, Əli Kərimlinin həmin partiyaların sədri postlarında olması, isə ən azı müxalifət düşərgəsində demokratiyanın boğulmasından xəbər verir. Çox uzağa getməyək, qardaş Türkiyədə bir seçkidə məğlub olan istənilən siyasi partiyanın lideri etika xatirinə özü könüllü şəkildə istefa verir və öz yerini daha gənc, perspektivli siyasətçilərə verir.

Bəzən Qərb standartlarından dəm vuran, beynəlxalq təcrübədən söhbət açan AXCP və Müsavat rəhbərləri isə partiyalarının gələcəyini deyil, özlərini düşünürlər. Azərbaycanın tanınmış ziyalıları radikal müxalifət düşərgəsində yaranmış antidemokratik vəziyyətdən təngə gələrək, oranı tərk etmişlər. Çünki partiya sədrləri partiya daxilində fikir müxtəlifliyinə, demokratik prinsiplərə qarşı çıxır, avtoritarizmə yuvarlanır, öz kreslolarını qoruyub-saxlamaq üçün ən çirkin vasitələrə əl atırlar.

Müxalifət daxilində birlik də mövcud deyil. Bu gün "dost" olan siyasi liderlər, sabah öz qəzetlərində biri-birinin ünvanına elə həqarət yağdırırlar ki, adam xəcalət çəkir. İndiyədək müxalifətin birliyi naminə yaradılan qurumlar da davamlı fəaliyyət göstərməmiş və qısa zamanda siyasi səhnədən silinmişdir.

Ərəb ölkələrində və postsovet ölkələrindəki rəngli inqilablarda baş verən çaxnaşmalardan sonra müxalifət düşərgəsinin hakimiyyət hərisliyi xəstəliyi yenidən şiddətlənib. Xaosa, anarxiyaya, qarışıqlığa meyilli olan bu düşərgənin liderləri Azərbaycan xalqını ərəblərə bənzətməyə çalışaraq, iddia edirlər ki, burada da eyni proseslər gedə bilər. Ancaq unudurlar ki, Azərbaycan bu mərhələni hələ ötən əsrin 90-cı illərində keçib. O zaman bizdə də, ərəb ölkələrində olduğu kimi, kütləvi mitinqlər keçirildi, ərəb ölkələrində dövlətin başında duran bir nəfər ölkədən qaçdısa, bizdə 3-ü - Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov xaricə qaçdı, Əbülfəz Elçibəy isə Naxçıvana, öz doğma kəndi olan Kələkiyə getdi. Xalqın qəzəbi və nifrəti qarşısında qorxuya düşən AXC-Müsavat hakimiyyətinin neçə-neçə təmsilçisi öz ibarələrincə desək, "vəzifəsini dondurdular".

Kütləvi mitinqlərin baş tutmasının ən önəmli səbəbi iqtidarla xalq arasında dərin uçurumun olmasıdır. Bu gün Azərbaycanda iqtidarın ən böyük dəstəkçisi xalqdır. Müxalifət liderlərinin xəyallarının həqiqətə çevrilməsi qeyri-mümkündür. Çünki xalq bu iqtidarı və onun ölkə üçün etdiklərini də görür, 1992-ci ildə Azərbaycanı viran qoyan bugünkü radikal düşərgənin əməllərindən də yaxşı xəbərdardır. Həmin dövrdə ictimai-siyasi sabitliyin olmaması və naşı iqtidarın yarıtmaz siyasəti nəticəsində, yeraltı və yerüstü sərvətlərlə zəngin olan ölkəmizdə, hətta ərzaqla təminatda ciddi problemlərin yaranması insanları aclıq təhlükəsi ilə üz-üzə qoymuşdu. Hər halda, heç kəs bu dövrün təkrar geri qayıtmasını istəməz, parçalanmış, məhv olmuş, iqtisadi, siyasi və sosial böhranla üz-üzə qalmış ölkə arzulamaz.

Bütün bunları görən Azərbaycan xalqı ölkəmizdə keçirilən demokratik seçkilərdə öz seçimini edib, bundan sonra da edəcək. İndiyədək baş tutan prezident, parlament, bələdiyyə seçkilərində həmişə Yeni Azərbaycan Partiyasının namizədləri böyük səs çoxluğu qazanıblar. Bu da, onu göstərir ki, ictimaiyyət iqtidarın həyata keçirdiyi inkişaf və quruculuq siyasətini dəstəkləyir. Azərbaycanda güclü demokratik ənənələrlə yanaşı, vətəndaş cəmiyyəti də formalaşıb. Ölkəmizdə, sözün əsl mənasında, vətəndaş həmrəyliyi mövcuddur. Radikal müxalifət düşərgəsi isə bu proseslərdən özünü təcrid etdiyinə, reallığa qərəzli münasibətinə görə, böhtan və iftira yolu tutduğuna görə, özünü xalqın gözündən salıb. İnsanlar görürlər ki, bu düşərgədə demokratiya və həmrəylik adına heç bir əsaslı addım atılmır. Bu səbəbdən də, özünə hörmət edən hər bir şəxs antidemokratik və radikal müxalifət düşərgəsini rədd edir.

***Rövşən RƏSULOV***

# On ayda ölkə üzrə 800 tondan çox yararsız qida məhsulları zərərsizləşdirilib

***Heyvan sağlamlığı olmadan qida təhlükəsizliyini təmin etmək mümkün deyil. Bizim birinci məqsədimiz Azərbaycanda zoonoz-heyvan mənşəli xəstəliklərin qarşısını almaq, heyvanların identifikasiyasını həyata keçirməkdir.***



AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli deyib. Onun sözlərinə görə, Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə 2020-ci ildən başlayaraq əvvəlcə Abşeron, sonra digər rayonlarda heyvanların identifikasiyası həyata keçiriləcək. O, əlavə edib ki, 2019-cu ilin yanvarından noyabr 1-nədək Azərbaycanda baytarlıq və fitosanitar tədbirlər nəticəsində 665 ton məhsul məhv edilib: "Bu dövrdə 13 min 355 litr spirtli və spirtsiz içki, 800 tondan çox yararsız qida məhsulları zərərsizləşdirilib. 1958 ton qida məhsulu özündə müxtəlif növ təhlükə daşıdığı üçün geri qaytarılıb. Azərbaycana təhlükəli, istər bitki, istərsə də heyvan mənşəli və digər xarakterli heç bir məhsul idxal olunmur".

# Müdafiə Nazirliyi: Qoşunların təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, dekabrın 4-də Füzuli rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçiriblər. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Oqnyen Yoviç aparıblar.

# Hüquqi dövlət və insan hüquq və azadlıqlarının təminatı

***Özünüdərkdən özünütəsdiqə uzanan keşməkeşli yollarla irəliləyərək, dünyada onun maddi və mənəvi varlığını məhdudlaşdırmağa yönəlmiş maneələri və sədləri dəf etməyə çalışan insan daim haqq-ədalət axtarışında olmuş, ədalətli cəmiyyət, ilk növbədə, daxili azadlığını təmin edəcək demokratik dövlətə qovuşmaq üçün mücadilə aparmışdır.***

Müasir dövrdə insan hüquq və azadlıqları sahəsində qazanılan nailiyyətlər dövlətlərin ümumi inkişaf səviyyəsini, iqtisadi-siyasi potensialını müəyyənləşdirən başlıca amillərdən biridir. İndi bütün sivil cəmiyyətlərdə insan haqlarının təminatı və ümumbəşəri humanist dəyərlərin bərqərar olmasına, eləcə də, bu sahə üzrə ixtisaslaşan demokratik institutların fəaliyyətinə xüsusi qayğı ilə yanaşılır. İnsan hüquq və azadlıqlarının təminatı bəşəriyyətin demokratik inkişafının ayrılmaz hissəsinə, mənəvi-hüquqi və siyasi ideallarının ali təzahürlərinə çevrilməklə, vətəndaş cəmiyyətinin yetkinliyinin başlıca meyarı kimi çıxış edir. Bu dəyərlər özündə ciddi təbliğati-siyasi məzmun ehtiva etməklə, dövlətlərin beynəlxalq nüfuzunun formalaşmasına da mühüm təsir göstərir.

İnsan hüquqları şəxsiyyət varlığını ifadə edən müəyyən normativ strukturlu xassə və xüsusiyyət olaraq onun həyatını, o cümlədən, cəmiyyət, dövlət və digər fərdlərlə qarşılıqlı münasibətinin ayrılmaz və zəruri vasitəsidir.

İnsan hüquqları anlayışı bu gün dünyada ictimai inkişaf prosesini istiqamətləndirən ən mühüm anlayışlardan biridir.

"Qismən azad" və "qismən demokratik" dəyərləndirmələr çox vaxt xəyallar mənbəyinə çevrilir, guya bütün bu kateqoriyaya daxil edilən ölkələr, tədricən demokratiya yolu ilə inkişaf edirlər. Burada nəzərə alınmır ki, demokratik rejimlərə beynəlxalq arenada ən çox inkişaf etmiş ölkələr tərəfindən həm mənəvi, həm də maddi dəstək verildiyi bir şəraitdə oliqarx, feodal-bürokratik, ifrat ənənəvi rejimlər, bir qayda olaraq, demokratik fasad arxasında fəaliyyət göstərməyə üstünlük verirlər, yəni siyasi mimikriya yolunu seçirlər. Bu cür siyasət isə, heç də onların mahiyyətini dəyişmir. Həmin rejimlərin qloballaşmaya adaptasiyası, beynəlxalq münasibətlər sistemində iştirakı, əksər hallarda, milli maraqların və insan haqlarının qurban verilməsi hesabına başa gəlir ki, bu da ağır və dramatik nəticələrdə özünü göstərir.

Bəzi avtokratik rejimli dövlətlərin "demokratiya pərdəsin"dən istifadə etməsi, əlbəttə ki, demokratikləşmə istiqamətində davamlı inkişafa təminat yaratmır, əksinə, bir çox həyati problemlərin həllini ləngidir, hətta mümkün etmir. Beləliklə də, insanların siyasi hakimiyyətə bəslədikləri etibar tükənir, çünki ümidlər özünü doğrultmur, vətəndaşların ümumi və şəxsi maraqlarının reallaşması arxa plana keçirilir. Demokratik frazeologiya ilə əməli fəaliyyət arasında uçurum yaranır ki, nəticədə, cəmiyyətdə və insani münasibətlərdə ahəngdarlıq pozulur, disharmoniya, destruksiya dərinləşir və kəskinləşir. Belə şəraitdə, aydındır ki, insan hüquq və azadlıqlarının təmin olunmasında ciddi problemlər yaranır.

Fəaliyyətdə olan hüquqi normalar və hüquqi şüur əsasında insan hüquqları ilə bağlı təsəvvürlər dayanmırsa, qəbilə-tayfa və qrup maraqları dominantlıq edirsə, vətəndaşlar "özümüzünkülər"ə və "yadlar"a bölünürsə, ayrı-seçkilik psixologiyası aşılanırsa, deməli, demokratiya heç vaxt tam məzmunda və həcmdə qərarlaşa bilməz. Şübhəsiz ki, belə cəmiyyətdə nə hüquqi dövlət, nə də vətəndaş cəmiyyəti öz təyinatına uyğun formalaşıb, fəaliyyət göstərə bilməz. Aydındır ki, bu halda, insanın başlıca sosiallaşma mühiti olan sosiumdan pozitiv imkanlar gözləmək də əbəsdir. Tanınmış analitiklərin fikrincə, bir sıra postsovet respublikalarında vəziyyət buna oxşardır. Təəccüblü deyildir ki, bu ölkələrdə "sosial partlayış"la "məxməri inqilab"ın baş verməsi təhlükəsindən ekspertlər tez-tez danışırlar.

Bir çox ölkələrdə yaranmış qeyri-qənaətbəxş vəziyyətin aparıcı xəttini, məhz insan haqları ideyasına, vətəndaş hüquq və azadlıqlarına olan biganə, laqeyd, bəzən də açıq-aşkar mənfi münasibət təşkil edir. Məsələ yalnız daxili faktorlarla məhdudlaşmır, problematiklik həm də qloballaşan dünyanın münasibətilə bağlıdır. Belə ki, maddi-iqtisadi maraqların ifrat dərəcədə üstünlük təşkil etməsi, supermaterialist yanaşmanın dominantlığı qloballaşan dünyada insan hüquqları sahəsində kifayət qədər mürəkkəblik yaradır. Qlobal kapitalizm və onun ideya-nəzəri əsası olan anqlosakson liberalizmi insan haqlarını, sanki öz girovuna və yaxud da gəlir götürmək vasitəsinə çevirib.

Nəzər yetirdikdə, bir paradoksallıq ortaya çıxır: bir tərəfdən insan hüquqları və dövlət hakimiyyətinin məhdudlaşdırılması ideyası bu gün dünyada ictimai inkişafa istiqamət verən mühüm ideyalardan sayılır, ölkələrin konstitusiyasında öz ifadəsini tapır, digər tərəfdən isə, həmin ideyaların həyata keçirilməsinə dünyanın özü əngəllər yaradır, ziddiyyətlərə yol açır. Demokratiya universal prinsip elan olunduğu halda, ona qarşı əngəllər törədilir. Universal dəyərlərin bəzi ölkələr üçün reallaşması vacib, digərləri üçün isə yalnız qeyri-müəyyən perspektivdə arzu olunan fenomen sayılır.

Tənqidi mövqedən çıxış edən mütəxəssislər qeyd edirlər ki, mövcud qloballaşma qütbləşməni (insanlar, ölkələr və regionlar arasında) dəhşətli surətdə dərinləşdirmişdir: bir tərəfdə böyük yoxsullar ordusu, əks-tərəfdə isə imtiyazlı və sərvətli azlıq formalaşmışdır. Üstəlik də, mövcud qeyri-tarazlıq və ədalətsizlik durmadan artır. Heç də təsadüfi deyildir ki, Qərbin özündə, ABŞ da bura daxil olmaqla, hal-hazırda həyata keçirilən qloballaşmaya qarşı çıxış edənlər kifayət qədərdir. Onların fikrincə, bu tip qloballaşma, əgər belə davam edərsə, gələcəkdə yoxsulluq və qeyri-tarazlığı, özgələşmə və destruksiyanı fəlakətli həddə çatdıra bilər. Məsələn, C.Stiqlits, L.Turou, Z.Sardar, M.Devis kimi tanınmış alimlər, qətiyyətlə söyləyirlər ki, hazırda reallaşdırılan qloballaşma bəşəriyyətin kamilləşmə aləti ola bilməz, o, yalnız kütləvi özgələşmə, qarşılıqlı nifrət, terror və s. fəsadlar ortaya çıxara bilər.

Müasir qloballaşmanı tənqid atəşinə tutanların içərisində rus alimləri az deyil. Düzdür, bunların əksəriyyəti Rusiyanın imperiyapərəst və millitarist maraqlarından çıxış edirlər. Bu səbəbdən də, heç də həmişə öz fikirlərində obyektivliyə və həqiqətə riayət etmirlər. XX əsrdə dünya hegemonluğu niyyətini həyata keçirə bilməyən Rusiya yeni yüzilliyin başlanğıcında da bu mümkünsüz iddialarından asanlıqla əl çəkmək fikrində olmadığını israrla nümayiş etdirməkdədir. Rusiyanın qlobal siyasətlə məşğul olan tədqiqat institutları və mərkəzlərində aparılan araşdırmaların başlıca istiqaməti bu məqsədə tabe etdirilmişdir. V.V.Putinin üçüncü prezidentlik dövründə Rusiyanın imperiyapərəst siyasəti daha da açıq-aşkar surətdə özünü göstərməkdədir. Azərbaycan da daxil olmaqla, Kremlin qonşu postsovet respublikalarına basqısı artmaqdadır. Rusiyanın siyasi hakimiyyəti məqsədinə çatmaq üçün bütün imkan və resurslardan istifadə edir - enerji amilindən tutmuş, miqrantlara münasibət məsələsinə qədər. Bütün mənfi, ifrat cəhətlərinə baxmayaraq, qloballaşmaya dair rus alimlərinin məqalə və kitabları kifayət qədər geniş yayılmış və maraq doğurmaqdadır. Bu alimlərdən biri, "Azad fikir" XXI əsr jurnalının baş redaktoru Vladislav İnozemtsev yazır: "Bizim qənaətimizə görə, müasir qloballaşmanın əsas "bəlası" o oldu ki, onun başlıca hərəkətverici şəxsi dünyanı öz mənfəətpərəst məqsədləri üçün istifadə etməyə öyrənmiş və bu səbəbdən də, onun ardıcıl inkişaf dinamikasına lazımınca qayğı göstərməyə qabiliyyətsiz ölkə olmuşdur." O, qloballaşmanı - amerikalaşma kimi amerikalaşmanı isə ayrı-ayrı xalqların və onların mədəniyyətlərinin özəlliklərinin itirilməsi və bütövlükdə, bəşəriyyətin məhvə doğru aparılması kimi şərh edərək, Amerika Birləşmiş Ştatlarını şiddətli tənqid atəşinə tutur: "Bu gün Birləşmiş Ştatların siyasəti son dərəcə hiyləgərdir. Amerika liderləri suverenlik prinsiplərini etiraf edirlər, lakin onu pozmaq üçün kauzistik bəhanə tapırlar. Onlar universalizmi təbliğ edirlər, lakin daha tez-tez birtərəfli hərəkətlər strategiyasına əl atırlar. İqtisadi azadlıqlara tərəfdar olduqlarını bəyan edirlər, həm də başqa ölkələr üzərinə özbaşına qoyduqları iqtisadi sanksiyalardan çəkinmirlər."

Başqa rus alimi İ.A.Vasilenko qloballaşmanın, yəni onun şərhində, qərbləşməsinin antihumanist mahiyyətini ifşa etməyin zəruriliyini irəli sürür. V.A.Lisiçkin və L.A.Şelepin ABŞ-i "Qlobal Şər İmperiyası" adlandırır, ABŞ-ın informasiya, fiziki məğlubetmə, ekoloji və maliyyə-iqtisadi "silahlardan" istifadə edərək, dünya hökmranlığını həyata keçirmək cəhdini kəskin pisləyirlər.

Onlar qloballaşmanı sırf Amerika fenomeni kimi izah edirlər və göstərirlər ki, ABŞ artıq 1940-cı illərdən bəri, mərhələ-mərhələ "dünyanın idarə edilməsinin vahid sistemini yaratmışdır." Bu rus mütəxəssislərinin fikrincə, ABŞ-ın qlobal strategiyası dünyanın illüziyalı görüntüsünün yaradılmasına xidmət edir, kütləri informasiya narkozuna daldırmağa söykənir ABŞ - yeni qüdrətli bir gücün - idarə olunan terrorizmin təşkilatçısıdır.

Qloballaşmaya dair rus alimlərinin baxışları, şübhəsiz, ifrata varmadan azad deyil. Bununla belə, onların fikirlərində həqiqətlə uzlaşan, reallığı əks etdirən elementlər də kifayət qədərdir. Hər halda, biz inkar edə bilmərik ki, bu gün ABŞ-ın və onun müttəfiqlərinin apardığı qlobal siyasət nəticəsində, dünya xalqları böyük itkilərə məruz qalır və həyat perspektivlərini itirir. Bir çox ölkələrdə, o cümlədən, İraq, Misir, Liviya və Suriyada yaradılmış ictimai xaos və fəlakətli durum deyilən fikrin birbaşa təsdiqidir. Neoliberalist qlobalizmi supermaterializmin ifadəsi və təntənəsi sayaraq, hələ xeyli əvvəl mən yazmışdım: "Dünyada demokratiyanın, insan hüquqlarının bərqərar olmasından, universallaşmanın zəruriliyindən gen-bol danışan ABŞ, əslində, xalqlardan bunu tələb edir: öz sərvətindən, öz dəyərlərindən, hətta özünəməxsusluğundan keç, soykökünü, tarixi-irsi, mədəniyyətini, adət-ənənəni, milli simanı unut! Unut, universallaşma prosesinə qoşul, əks halda, sən əziləcəksən və təqiblərə məruz qalacaqsan!.. Amerikasayağı universallaşma, ümumiyyətlə, Qərb-Şərq dialoquna imkan və stimul verirmi? Əsla, yox! Əksinə, dünyanı parçalayır, xalqları və ölkələri, dinləri və mədəniyyətləri üz-üzə qoyur, şiddətli qarşıdurmalara rəvac verir". Başqa bir əsərimdə isə göstərmişdim: "Bu gün qloballaşma hay - küyündə "tam" kimi təsvir edilən dünya, həqiqətən də, ciddi surətdə çat verib, şaqqalanıb, hədsiz dərəcədə qütbləşib və diskretləşib. Barışmaz ziddiyyətlərin olduğunu inkar etmək, sadəcə olaraq, mümkün deyil. Bir sözlə, dünya çoxşaxəli və dərin parçalanma, qarşıdurma böhranı keçirməkdədir." Vaxtilə söylədiyim bu fikirlərdə yenə də israrlıyam, çünki reallıqlar və dünyanın gedişatı onların əsaslı olduğunu təsdiqləyir. Müasir dünyanın böhranlı durumu, beynəlxalq münasibətlərdə optimal və ədalətli davranış məcəlləsinin, adekvat beynəlxalq hüquq sisteminin olmaması birbaşa insan hüquqlarının total surətdə pozulmasına səbəb olur ki, ümumi bəşəri turbulentlik, münaqişə və qarşıdurmalar şiddətlənir.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# “BakuTel” sərgisində “Nar” stendinə gəl, müasir smartfon qazan!

***Ölkənin ən gənc mobil operatoru “Nar”, “BakuTel-2019” - 25-ci Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgisində iştirak edir. Hər zaman müştəriyönümlü addımları və yenilikləri ilə seçilən “Nar” yubiley sərgisində interaktiv stendi ilə ziyarətçiləri qarşılayır.***




“Nar” abunəçiləri hesabı daha asan idarə etməyə imkan verən “Nar+” tətbiqini yükləməklə müsabiqədə iştirak haqqı qazanırlar. Bütün sərgiboyu keçiriləcək müsabiqənin qalibləri hər günün sonunda elan ediləcək və müasir smartfonla təltif olunacaqlar. Stendin diqqətçəkən xüsusiyyətlərindən biri də “Nar”ın yüksəkkeyfiyyətli şəbəkəsini özündə təcəssüm etdirən maraqlı aktivliklərin təqdim olunmasıdır. Belə ki, hər bir sərgi iştirakçısı xüsusi ayrılmış qapalı zonada virtual reallıq oyunlarını sınaqdan keçirmək şansına malikdir. Bundan başqa, ziyarətçilər həm də 4G şəbəkəsinin sürətini yerindəcə test edə bilərlər. Mobil operator hər kəsi 3-6 dekabr tarixlərində Bakı Ekspo Mərkəzində keçiriləcək 25-ci “BakuTel-2019” sərgisindəki “Nar” stendinə dəvət edir.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8600-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.



# Ağcabədidə ilk dəfə səs verən gənclərlə görüş keçirilib



Dekabrın 23-də keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar YAP Ağcabədi rayon təşkilatı və Ağcabədi rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə YAP Ağcabədi rayon təşkilatında ilk dəfə səs verəcək rayon gənclərilə görüş keçirilib.

Görüşü YAP Ağcabədi rayon təşkilatının aparat rəhbəri Nazim Bünyatov açaraq, ilk dəfə səs verəcək gəncləri təbrik edib: “Siz ölkədə keçirilən bələdiyyə seçkilərində Müstəqil Azərbaycan Respublikasının vətəndaşı kimi ilk dəfə səs verəcəksiniz. Bu, o deməkdir ki, Azərbaycan Respublikasının Konstitusiyasına müvafiq olaraq seçki hüquqlarınızdan istifadə edəcəksiniz.



Hazırda Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən ölkədə bütün sahələrdə köklü islahatlar aparılır, yeniləşmə həyata keçirilir və kadr islahatları aparılır. Bu gün bütün sahələrdə gənclərə böyük önəm verilir. Hər bir gənc ölkədə baş verən ictimai-siyasi proseslərdə fəal iştirak etməli, onun inkişafı üçün öz töhfələrini verməlidir. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, müstəqilliyi əldə etmək çətindirsə, onu qoruyub saxlamaq daha çətindir. Ona görə də, gənclərin dəvizi ölkəmizin müstəqilliyinin qorunması, onun daha da inkişaf etməsi və layiqli vətəndaş kimi vətənə xidmət etmək olmalıdır”. Tədbirdə Ağcabədi rayon Gənclər və İdman İdarəsinin rəis müavini Eldəniz Qənbərov çıxış edərək, ilk dəfə səs verəcək gənclərə səsvermə proseduru və səsvermə barədə maarifləndirici məlumat verib.

Tədbirdə 82 saylı Ağcabədi Dairə Seçki Komissiyasının katibi Sadiq Həsənov çıxış edərək, 18 yaşı tamam olmuş gəncləri yaşadıqları ərazilərdə fəaliyyət göstərən seçki məntəqələrinə gedərək, adlarının seçici siyahılarında qabaqcadan yoxlamağı tövsiyə edib və 23 dekabr 2019-cu il tarixdə keçiriləcək bələdiyyə seçkilərində fəal iştirak etməyə səsləyib.

***ZÜMRÜD***

## Təbrik



Bu gün Rəhilə xanımın
80 yaşı tamam olur.
Bu münasibətlə oğlu Çingiz və
ailəsi ürəkdən təbrik edir.
Rəhilə xanıma uzun ömür,
can sağlığı arzulayırlar.

## ELAN

ADPU-nun Biologiya müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Əliyev Bəylər Əkrəm oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## BAŞSAĞLIĞI

“Səs” Media Qrupunun rəhbəri Bəhruz Quliyev kollektiv adından Elşad Hacıyevə anası

**Sahidə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin.***

# Pol Qogenin əsəri hərracda 9,5 milyon avroya satılıb



Fransalı post-impressionist rəssam Pol Qogenin “Qalın ağac” (Te Bourao II) əsəri Parisdə keçirilən hərracda 9,5 milyon avroya satılıb. Bu barədə “Artcurial” hərrac evi özünün “Twitter” səhifəsində yazıb. 73x92 santimetr ölçüsündə olan rəsm adı açıqlanmayan beynəlxalq kolleksiyaçı tərəfindən əldə olunub. Alıcının sözlərinə görə əsər Fransada qalacaq.

Məlumatda bildirilir ki, P.Qogen bu əsəri Taitidə olarkən çəkib. Bu rəsm onun Taitidə qaldığı müddətdə çəkdiyi doqquz sənət əsərindən biridir. Əsərlər 1898-ci ildə rəssama həsr olunmuş sərgi üçün Parisə göndərilib. “Te Bourao II” rəsmi bu dövrün yeganə əsəridir və xüsusi kolleksiyada saxlanılır. P.Qogenin digər rəsmləri isə dünyanın aparıcı muzeylərində, xüsusən də Ermitaj və Orse muzeyində nümayiş olunur.

# Hindistanda polis əməkdaşı iş yoldaşlarına atəş açaraq 6 nəfəri öldürüb



Hindistanın mərkəzi hissəsindəki Çhattisqarh ştatında yerləşən Narayanpur dairəsində polis əməkdaşının iş yoldaşlarını atəşə tutması nəticəsində azı altı nəfər həlak olub, iki nəfər isə yaralanıb. Hazırda yaralıların həyatı üçün təhlükə yoxdur, həkimlər onların vəziyyətini stabil qiymətləndirir. Hindistan mətbuatının yazdığına görə, insident dekabrın 4-də səhər saatlarında qeydə alınıb. Hücum edən şəxsin motivləri bəlli deyil. Hüquq-mühafizə orqanlarının məlumatına əsasən, həlak olanlardan ikisi yüksək rütbəli polis zabitidir. Hücumdan sonra cinayətkarın özünü güllə ilə vurduğu bildirilir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**